HEÇ VAXT UNUDULMAYACAQ QƏHRƏMANLIQ SALNAMƏSİ

Azərbaycan xalqı bütün dünyaya nümayiş etdirdi ki, nəsillər dəyişsə də, aradan uzun zaman keçsə də yaddaşlarda yaşayan, qəlbimizə hakim olan Vətən sevgisi heç vaxt itmir.

TORPAQ HƏSRƏTİNİN BİTDİYİ GÜN

8 Noyabr Azərbaycan xalqı üçün tək Zəfər tarixi deyil. Bu gün həm də doğma torpaqlarımızın həsrətdən qurtulduğu, illərlə sinələrdə daşınan işğal ağrısının qürura çevrildiyi, milli iradənin qələbə çaldığı bir gündür. Bu tarix əsrlər boyu yaşayacaq Zəfər salnaməmizin başlanğıcıdır. Bu Zəfərin arxasında tək hərbi güc yox, həm də səbir, inam, fədakarlıq, dövlətçilik düşüncəsi və vətənpərvərlik ruhu dayanır.

YENİ REALLIQLAR YARADAN ZƏFƏR

Vətən müharibəsi ciddi geosiyasi dəyişikliklərə səbəb olub. Regionda qüvvələr nisbəti dəyişib. Ərazi bütövlüyümüzün bərpası ilə Cənubi Qafqazda tamamilə yeni siyasi, hərbi və iqtisadi münasibətlər sistemi formalaşıb. Bu dəyişikliklər yalnız Azərbaycan və Ermənistan arasındakı münasibətlərə deyil, Türkiyə, Rusiya, İran, Avropa İttifaqı və ABŞ-nin regiondakı maraqlarına da təsir göstərib.

SƏHİFƏ 3, 4, 5-də



ÜÇ ƏSRİN QƏZETİ
Kaspi
7 NOYABR ŞƏNBƏ 2026 № 42 (4293) Qiyməti - 60 qəpik www.kaspi.az
‘KASPİ’ QƏZETİ 1881-Cİ İLİN YANVARINDAN NƏŞR OLUNUR. QƏZETİN ÇAPI 1999-CU İLDƏ BƏRPA OLUNUB

QALİB XALQIN QÜRUR DASTANI

8 Noyabr xalqımız üçün sadəcə Qələbə günü deyil. Bu tarix yaddaşın zəfəri, iradənin təntənəsi, milli ləyaqətin bərpası və Azərbaycan dövlətçiliyinin qüdrətinin nümayişidir. Zəfərimiz əbədi olsun!



Kaspi ÜÇ ƏSRİN QƏZETİ



Şəhid ailələrinə daha 130 mənzil verilib

8 Noyabr - Zəfər Günü ərəfəsində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Bakı, Şirvan, Hacıqabul, Yevlax şəhər və rayonlarında şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə daha 130 mənzil verilib.

AZƏRTAC xəbər verir ki, mənzillər Mənzil İnşaatı Dövlət Agentliyinin(MİDA) müvafiq yaşayış komplekslərində yerləşir və tam təmirlidir.

Bakının Binəqədi rayonunda mənzillərin təqdim edilməsi tədbirində əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Hidayət Abdullayev şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin dövlətin yüksək diqqət və qayğısı ilə əhatə olunduqlarını bildirib.

O, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun Vətən müharibəsində qazandığı tarixi Zəfərdən sonra bu kateqoriyadan olan şəxslərin mənzillə təminatı proqramının beş dəfə genişləndirildiyini vurğulayıb.

Qeyd edilib ki, təqdim edilən mənzillər də daxil olmaqla postmüharibə dövründə şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə 7500-dək, ümumilikdə ötən dövrdə isə 16 mindən çox mənzil verilib. Eyni zamanda, müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə postmüharibə dövründə 586, ümumilikdə ötən dövrdə 7700-dən çox avtomobil təqdim edilib.

Digər bölgələrdə şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə mənzillərin təqdim edilməsi tədbirlərində çıxış edənlər şəhid ailələrinin və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin rifah halının yaxşılaşdırılmasının dövlətimizin uğurlu sosial siyasətinin əsas prioritetlərindən biri olduğunu vurğulayıblar. Həmin kateqoriyalara aid vətəndaşların mənzillə təminatı tədbirlərinin də bu siyasətin əyani təzahürü olduğu qeyd edilib.

Yeni mənzillə təmin olunan şəhid ailələrinin üzvləri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslər onlara göstərilən yüksək diqqət və qayğıya görə Prezident İlham Əliyevə dərin minnətdarlıqlarını bildiriblər.

PREZİDENT VƏ BİRİNCİ XANIM ZƏNGİLAN VƏ CƏBRAYILDA



Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva səfər çərçivəsində bir sıra yaşayış məntəqələrinin, obyektlərin açılışında iştirak ediblər.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Zəngilan və Cəbrayıl rayonlarına səfər ediblər. Səfər çərçivəsində bir sıra yaşayış məntəqələri və obyektlərin açılışı reallaşıb.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Zəngilan rayonunun Cahangirbəyli kəndinin birinci mərhələsinin açılışında iştirak ediblər. Sonra dövlət başçısı və birinci xanım burada Zəngilan rayonunun Cahangirbəyli və Cəbrayıl rayonunun Soltanlı kəndlərinə köçən sakinlərlə görüşüblər.

Prezident İlham Əliyev sakinlərə mənzillərin açarlarını təqdim edib.

SOLTANLI KƏNDİNDƏ 420 FƏRDİ EV İNŞA EDİLİB

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva noyabrın 6-da Cəbrayıl rayonunun Soltanlı kəndinin birinci mərhələsinin açılışında iştirak ediblər.

Soltanlı kəndi 1993-cü ildə Ermənistan tərəfindən işğal edilmişdi. İşğal dövrünədək əhali əsasən pambıqçılıq, taxılçılıq, baramaçılıq, üzümçülük və heyvandarlıqla məşğul olub. Azərbaycan Silahlı Qüvvələri 2020-ci il oktyabrın 19-da kəndi işğaldan azad edib.

Ümumi sahəsi 108,5 hektar olan Soltanlı kəndində 420 fərdi ev inşa edilib. Evlər 2, 3, 4, 5 otaqlıdır və müasir kommunikasiya şəbəkəsi - su, işıq, qaz, Günəş panelləri, yüksəksürətli internetlə təmin olunub. Kənddaxili yollara asfalt döşənib. Layihə üzrə Soltanlı kəndində ikimərtəbəli inzibati bina, uşaq bağçası, həkim-tibb məntəqəsi, həmçinin çoxfunksiyalı bina tikilib. Kənddə aptek, market, dərzi, gözəllik salonu və digər xidmət mərkəzləri üçün nəzərdə tutulmuş bir və ikimərtəbəli hissələrdən ibarət olmaqla çoxfunksiyalı bina inşa edilib.

Kənddə inşa olunmuş 140 yerlik körpələr evi-uşaq bağçasında balacaların rahatlığının təmin olunmasına xüsusi diqqət yetirilib. Bağçada metodika, kompüter, oyun, musiqi otaqları, yeməkxana uşaqların ixtiyarına veriləcək.



300 nəfər daimi işlə təmin ediləcək



Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva noyabrın 6-da Cəbrayıl rayonunda "Sunbeverage" MMC-nin alkoqolsuz içki istehsalı müəssisəsinin açılışında iştirak ediblər.

Bildirilib ki, Şərqi Zəngəzur iqtisadi rayonunda yaradılan bu müəssisədə qazlı və qazsız sular, soyuq çay, meyvə tərkibli, vitaminli və azkalorili içkilər istehsal olunacaq. Ərazisi 10 hektar olan müəssisənin illik istehsal gücü 150 min tondur. Məhsulların daxili bazarla yanaşı, xarici bazarlara ixracı nəzərdə tutulur. Burada İtaliya istehsalı olan müasir avadanlıq quraşdırılıb. İstehsal prosesi suyun təmizlənməsi, şərbət hazırlanması, qarışdırma, qazlaşdırma, məhsulun plastik butulka və şəffaf qida qablarına doldurulması, qapaqlanması, etiketlənməsi və qablaşdırılması mərhələlərini əhatə edir.

Layihənin ümumi dəyəri 70 milyon manatdır. Maliyyələşmədə özəl vəsaitlə və bank kreditləri ilə yanaşı, İqtisadiyyat Nazirliyinin tabeliyində Azərbaycan Biznesinin İnkişafı Fondunun (ABİF) dəstəyi ilə 5 milyon manat məbləğində güzəştli kreditdən, həmçinin əlavə 5 milyon manat kredit üzrə zəmanət və faiz subsidiyası mexanizmindən istifadə edilib. Burada 300 nəfər daimi işlə təmin ediləcək.

Qeyd edək ki, müəssisə Şərqi Zəngəzur iqtisadi rayonunda qida sənayesinin inkişafına töhfə verməklə yanaşı, əhalinin məşğulluğunun təmin edilməsində də böyük rol oynayır. Eyni zamanda, bu layihənin reallaşması ölkəmizin ixrac potensialının artırılmasına öz töhfəsini verir.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Zəngilan Şəhər Təhsil Kompleksinin açılışında da iştirak ediblər.

Kaspi
ÜÇ ƏSRİN QƏZETİ

QALİB XALQIN QÜRUR DASTANI

8 Noyabr – sadəcə Qələbə günü deyil. Bu, yaddaşın zəfəri, iradənin təntənəsi, milli ləyaqətin bərpası və Azərbaycan dövlətçiliyinin qüdrətinin nümayişidir. Zəfərimiz əbədi olsun!



AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az

8 Noyabr Azərbaycan xalqı üçün tək Zəfər tarixi deyil. Bu gün həm də doğma torpaqlarımızın həsrətdən qurtulduğu, illərlə sinələrdə daşınan işğal ağrısının qürura çevrildiyi, milli iradənin qələbə çaldığı bir gündür.

VƏTƏN SEVGİSİ HEÇ VAXT UNUDULMUR

Bu Zəfərin arxasında tək hərbi güc yox, həm də səbir, inam, fədakarlıq, dövlətçilik düşüncəsi və vətənpərvərlik ruhu dayanır. Bu yol 1990-cı illərin ağır sınaqlarına, torpaqlarımızın işğalına, milyonlarla soydaşımızın köçkün həyatına, şəhid analarının göz yaşlarına şahidlik etdi.

30 ildən artıq davam edən işğal dövründə vətən həsrəti ilə yaşayan milyonlarla soydaşımızın qəlbində bir arzu vardı: Qarabağa qayıtmaq! Şuşanın, Ağdamın, Laçının küçələrində, dağlarında yenidən gəzmək, Cıdır düzündə ucalan Azərbaycan bayrağını görmək, doğma kəndindəki ata ocağının qapısını açmaq... Uzun illər davam edən diplomatik danışıqlar fonunda bu arzu bəzən əlçatmaz görünürdü. Lakin Azərbaycan xalqı bir daha bütün dünyaya nümayiş etdirdi ki, nəsillər dəyişsə də, aradan uzun zaman keçsə də yaddaşlarda yaşayan, qəlbimizə hakim olan Vətən sevgisi heç vaxt unudulmur.

MİLLİ KİMLİYİMİZİN SİMVOLU

2020-ci il noyabrın 8-də Şuşanın işğaldan azad edilməsi Azərbaycan tarixinin ən möhtəşəm hərbi-siyasi hadisələrindən biri oldu. Şuşa tək strateji əhəmiyyətə malik şəhər yox, həm də mədəniyyət paytaxtımız, milli musiqimizin beşiyi, incəsənətimizin müqəddəs məkanı idi. Bu baxımdan Şuşanın azadlığı ilə ölkəmiz həm də milli kimliyimizi simvolizə edən ən mühüm rəmzlərindən birinə qovuşdu. Bu qələbə xalqın mənəvi dünyasında illərlə yığılıb qalmış nisgilin içərisində yeni bir səhər açdı. Şuşa Zəfəri göstərdi ki, milli iradə, peşəkar ordu, düzgün strateji planlaşdırma bir araya gəldikdə ən çətin maneələr belə bu gücün qarşısında aciz qalır.

ŞƏHİDLƏRİMİZİN MİRASINA LAYİQİNCƏ SAHİB ÇIXIRIQ

Tarixi Zəfərimiz Azərbaycan əsgərinin qəhrəmanlığı, Ordumuzun peşəkarlığı, şəhidlərimizin, qazilərimizin qanı-canı bahasına əldə edildi. Şəhidlərimizin ruhuna hörmət, mirasına sayğı hər birimizin müqəddəs borcudur. Onlar Vətənin azadlığı uğrunda öz həyatlarını fəda etdilər ki, gələcək nəsillər başıuca yaşasın, Azərbaycan bayrağı heç bir zaman başqasının hökmü altında qalmasın. Bu gün dövlətin ali rəhbərliyinin iradəsi ilə şəhidlərimiz daim ehtiramla yad olunur, onların bizlərə əmanət qoyduqlarına Azərbaycan dövləti layiqincə sahib çıxır.

HƏRBİ-SİYASİ QƏLƏBƏDƏN DAVAMLI SÜLHƏ

44 günlük Vətən müharibəsinin nəticələri yalnız hərbi qələbə ilə məhdudlaşmadı. Bu qələbə Cənubi Qafqazın geosiyasi mənzərəsini dəyişməklə yanaşı, regionda qüvvələr nisbətinə yeni məzmun gətirdi. Azərbaycanın beynəlxalq münasibətlər sistemindəki mövqeyini gücləndirdi. İllərlə beynəlxalq hüququn tapdalanan prinsiplərini, BMT qətnamələrini Azərbaycan dövləti özünün güclü siyasi iradəsi, hərbi qüdrəti ilə reallaşdırdı.

Lakin sirr deyil ki, Zəfərin hərbi-siyasi nəticələri tək əldə edilən nəticələrlə yox, həm də gələcək davamlı sülhlə ölçülür. Əsl siyasi müdriklik məhz hərbi qələbəni davamlı sülhə, regional əməkdaşlığa və uzunmüddətli inkişaf modelinə çevirmək bacarığıdır. Bu gün Prezident İlham Əliyevin uzaqgörən siyasəti, diplomatik zəkası ilə bölgəmizdə qanlı münaqişə dövrü sülh gündəliyi ilə əvəzlənib. Qalib xalq olaraq Azərbaycan dünyaya öz təcrübəsində sülhün əldə olunmasının mümkünlüyünə dair unikal nümunə təqdim edib.

BÖYÜK QAYIDIŞ VƏ DİRÇƏLİŞ

Bu gün Azərbaycan həm də hərbi-siyasi qələbəsini işğaldan azad edilmiş ərazilərə yeni həyat verməklə, qurub-yaratmaqla taclandırır. Bu gün Qarabağ və Şərqi Zəngəzur yeni quruculuq mərhələsini yaşayır. Böyük Qayıdış proqramı çərçivəsində doğma yurdlarına qayıdan ailələr təkcə evlərinə deyil, həm də yarımçıq qalmış həyatlarına, uşaqlıq xatirələrinə və milli kimliklərinin ayrılmaz parçasına qovuşurlar. Bu qayıdışın hər bir anında böyük bir tarix yaşayır. Bir ailənin illər sonra öz evinin qapısını açması bəzən əldə edilən ən böyük qələbədir. Bu sevinci Müzəffər Ali Baş Komandan doğma yurdlarına qayıdan sakinlərlə birlikdə yaşayır. Prezident İlham Əliyevin işğaldan azad edilmiş ərazilərə hər səfəri bir daha göstərir ki, dövlətin vəzifəsi tək sərhədləri qorumaq yox, həm də vətəndaşına təhlükəsiz, firavan və ləyaqətli həyatı təmin etməkdir. Bu gün Azərbaycan dövlətinin qarşısına qoyduğu, prioritet elan etdiyi başlıca siyasət də məhz budur.

Bəli, bu gün Şuşada, Kəlbəcərdə, Laçında, Füzulidə, Ağdamda və daha neçə-neçə işğaldan azad edilmiş şəhər və kəndlərimizdə dalğalanan üçrəngli bayrağımız bütöv bir xalqın qürurunu, müstəqilliyini və gələcəyə inamını ifadə edir.

8 Noyabr – sadəcə Qələbə günü deyil. Bu, yaddaşın zəfəri, iradənin təntənəsi, milli ləyaqətin bərpası və Azərbaycan dövlətçiliyinin qüdrətinin nümayişidir. Bu gün qürurla deyirik: Qarabağ Azərbaycandır! Zəfərimiz əbədi olsun!



Kaspi ÜÇ ƏSRİN QƏZETİ

YENİ REALLIQLAR YARADAN ZƏFƏR

Vətən müharibəsi yekunda Cənubi Qafqazda əvvəlki geosiyasi status-kvonun dəyişməsinə səbəb olub. Azərbaycan həm regionda hərbi-siyasi mövqelərini, həm də dünya miqyasında artan rolunu gücləndirib.



ƏRTURAN İSMAYIL

2020-ci ilin 44 günlük Vətən müharibəsi, Azərbaycan Ordusunun düşmən üzərində qazandığı qələbə sadəcə ölkəmizin və onun vətəndaşlarının deyil, ümumilikdə regionun taleyində mühüm rol oynayan tarixi hadisədir. Cəmi 44 günə yazılan bu şanlı qəhrəmanlıq salnaməsi hər il dövlət səviyyəsində qeyd edilir. Prezident İlham Əliyevin 3 dekabr 2020-ci ildə imzaladığı sərəncamla 8 noyabr Zəfər Günü təsis edilib.

CƏNUBİ QAFQAZIN GEOSİYASİ MƏNZƏRƏSİNDƏ CİDDİ DƏYİŞİKLİKLƏR

Vətən müharibəsi Cənubi Qafqazın geosiyasi mənzərəsində ciddi dəyişikliklərə səbəb olub. Müharibə nəticəsində regionda qüvvələr nisbəti dəyişib, Azərbaycanın ərazi bütövlüyünün bərpası ilə Cənubi Qafqazda tamamilə yeni siyasi, hərbi və iqtisadi münasibətlər sistemi formalaşıb. Bu dəyişikliklər yalnız Azərbaycan və Ermənistan arasındakı münasibətlərə deyil, Türkiyə, Rusiya, İran, Avropa İttifaqı və ABŞ-nin regiondakı maraqlarına da təsir göstərib. İlk növbədə Ermənistanın hərbi-siyasi mövqeləri tamamilə zəifləyib. İndi bu ölkə himayədarlarına arxalanaraq Azərbaycanla diktə dilində danışa, "qalib tərəf" kimi xalqımızın ünvanına hədyanlar səsləndirə bilmir.

Vətən müharibəsindən sonra Türkiyənin Cənubi Qafqazdakı siyasi və təhlükəsizlik mövqelərinin artmasını da müşahidə edə bilərik. 2021-ci il iyunun 15-də Türkiyə ilə Şuşa Bəyannaməsi imzalanıb. 44 günlük müharibə və antiterror əməliyyatından sonra Rusiya rəsmilərinin "Qarabağ kartı" üzərindən Azərbaycana təzyiq və təsir siyasəti, bu münaqişə vasitəsilə Cənubi Qafqaz regionunu nəzarətdə saxlamaq cəhdləri əllərindən çıxıb. İrana gəlincə, 44 günlük müharibədən sonra rəsmi Tehranın Cənubi Qafqaza münasibətində nəqliyyat və sərhəd təhlükəsizliyi məsələləri daha çox ön plana çıxıb. İran Azərbaycanla iqtisadi və siyasi münasibətləri, eyni zamanda Şimal-Cənub nəqliyyat dəhlizini inkişaf etdirməyə məcburdur.

FRANSA VƏ AVROPA İTTİFAQININ DƏYİŞƏN MÖVQEYİ

Eyni yanaşma Fransanın timsalında Avropa İttifaqına da aiddir. Vətən müharibəsi günlərində Azərbaycan Prezidentinə davamlı telefon zəngləri edən, ermənilərə müdafiə məqsədilə döyüşləri saxlamağa və bizə təzyiq göstərməyə çalışan, səsləndirdiyi bəyanatlarda xalqımızı işğalçı kimi qələmə verən, müharibədən sonra isə avropalı keçmiş hərbçiləri "müşahidəçi" adı altında Ermənistanda yerləşdirən Emmanuel Makron, həmçinin digər avropalı dövlət və hökumət başçıları, diplomatları artıq üslublarını dəyişiblər. İndi onlar Azərbaycanla hesablaşır, əməkdaşlıq əlaqələrini inkişaf etdirmək üçün Azərbaycan Prezidentinin qəbuluna düşməyə can atırlar. Bunu istər onların Bakıya səfərlərində, istərsə də beynəlxalq tədbirlər zamanı müşahidə etmək olur.

Çinlə strateji tərəfdaşlıq

Ən nəhayət, tarixi qələbədən ötən illər ərzində qalib Azərbaycan dünyanın supergücləri sayılan Çin və ABŞ ilə yüksəksəviyyəli əlaqələr qurmağa nail olub. Prezident İlham Əliyevin 2025-ci ildə Çin Xalq Respublikasına dövlət səfəri Azərbaycan-Çin münasibətlərinin yeni mərhələyə qədəm qoyması, ikitərəfli əlaqələrin hərtərəfli strateji tərəfdaşlıq səviyyəsinə yüksəldilməsi ilə əlamətdar olub. Səfər zamanı Çin Azərbaycanın sülh gündəliyinə dəstəyini ifadə edib. Azərbaycan isə "Vahid Çin" siyasətinə sadiqliyini bir daha təsdiqləyib. Tərəflər həmçinin Azərbaycanın Şanxay Əməkdaşlıq Təşkilatında statusunun yüksəldilməsini dəstəkləyən mövqelərini ifadə ediblər. Nəticə etibarilə bu səfər Azərbaycan-Çin münasibətlərinin hərtərəfli strateji tərəfdaşlıq səviyyəsinə yüksəldilməsi, iqtisadi, enerji, nəqliyyat, rəqəmsal texnologiyalar və humanitar sahələrdə əməkdaşlığın genişləndirilməsi, Azərbaycanın Orta Dəhliz və "Bir kəmər, bir yol" təşəbbüsü çərçivəsində tranzit və logistika rolunun inkişafı üçün yeni imkanların yaradılması ilə yadda qalıb.

ABŞ ilə qurulan münasibətlər



Dövlət başçısı İlham Əliyevin 2025-ci ilin avqustunda Vaşinqtona səfər etməsi, ABŞ Prezidenti Donald Tramp tərəfindən yüksək səviyyədə qarşılanması, səmimi ab-havada keçirilən görüşlərin, aparılan danışıqların nəticəsi olaraq avqustun 8-də Azərbaycan və Ermənistan liderlərinin birgə bəyannamə imzalaması da böyük tarixi nailiyyətdir. Vaşinqton bəyannaməsində regional kommunikasiyaların açılması, Ermənistan ərazisindən Azərbaycanla Naxçıvan arasında əlaqənin təmin edilməsi və TRIPP layihəsinin inkişaf etdirilməsi nəzərdə tutulub. Hazırda bu layihənin icrası istiqamətində işlər görülür. Belə bir fonda ABŞ-Azərbaycan iqtisadi-siyasi əlaqələrindəki aktivlik xüsusi diqqət çəkir.

ARTAN BEYNƏLXALQ NÜFUZUN GÖSTƏRİCİSİ

Biz buraya Azərbaycanın beynəlxalq təşkilatlarda rolunun artmasını da əlavə edə bilərik. Azərbaycanın BMT-dən sonra ikinci ən böyük beynəlxalq təşkilat sayılan Qoşulmama Hərəkatına, Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirəyə (AQEM) sədrlik etməsi, İnkişaf Etməkdə Olan Səkkiz Ölkənin İqtisadi Əməkdaşlıq Təşkilatına (D-8) üzvlüyü, Türk Dövlətləri Təşkilatına təsisçi üzvlüyü və sair beynəlxalq təşkilatlarda iştirakçılıq səviyyəsi qalib xalqımıza, onun dövlətinə və Prezidentinə olan hörmətin, etimadın əyani göstəricisidir.

Beləliklə, gəlinən nəticə odur ki, 44 günlük Vətən müharibəsi Cənubi Qafqazda əvvəlki geosiyasi status-kvonun dəyişməsinə səbəb olub. Azərbaycan həm regionda hərbi-siyasi mövqelərini, həm də dünya miqyasında artan rolunu gücləndirib. İndi qalib xalq və dövlət, güclü lider tərəfindən idarə olunan ölkə kimi bizimlə hesablaşırlar.

MƏKTƏBLİLƏRLƏ ZƏFƏR SÖHBƏTLƏRİ

Zaur Hüseynov: “Biz ön cəbhədə olsaq da, Azərbaycan xalqının bu savaşla nəfəs aldığını daim hiss edirdik. Məktəblilərin yazdığı məktublar, yaşlı nənə-babalarımızın təqaüdlərini cəbhəyə göndərməsi, insanların küçədən keçən hərbi maşınlara evlərindəki bir tikə çörəyi uzatması bizim üçün ən böyük stimul idi”.



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

“Zəfər xəbərini ilk kiminlə bölüşdünüz?” Vətən Müharibəsi Qəhrəmanına şagirdlərin ünvanladığı ilk sual bu idi. Bütün zalın cavabını maraqla gözlədiyi bu suala qəhrəman belə cavab verir: “Şuşada idik. Noyabrın 9-dan 10-na keçən gecə, təxminən saat 2 radələrində atəşkəs elan olunduğunu dedilər. Müharibə zamanı ərazilər azad edildikcə həmin ərazilərdə mobil şəbəkə də sürətlə qurulurdu. Gördük ki, hamı əlində telefon gəzir. Şuşanın azad edilməsi ilə bağlı döyüş əmrini alıb hərəkətə başladığımız gündən noyabrın 10-dək heç kimlə əlaqəmiz yox idi. Açığı, bütün diqqətimiz döyüşdə idi. Ailəmiz, yaxınlarımız, tanışlarımız heç yadımıza da düşmürdü. Noyabrın 10-da şəbəkə yarananda sanki özümüzə də bir siqnal gəldi: ailəmiz var, evimizlə danışmalıyıq. İlk atama zəng etdim və Böyük Zəfərin şad xəbərini ailəmlə bölüşdüm”.

Zəfər günü ərəfəsində Bakı Şəhəri üzrə Təhsil İdarəsi və “Kaspi” qəzetinin birgə layihəsi olan “Məktəbdə...”nin qonağı Vətən Müharibəsi Qəhrəmanı, polkovnik-leytenant Zaur Hüseynov olub. Fizika, riyaziyyat və informatika təmayüllü respublika liseyində keçirilən görüşdə şagirdlər qəhrəman hərbçinin döyüş yolunun hekayəsini dinləyib, onun həyat və gələcəklə bağlı tövsiyələrini eşitdilər.

“DAŞ ÜZƏRİNƏ YAZILAN “5”

Vətən Müharibəsi Qəhrəmanı Salyanda keçən məktəb illərindən söz açaraq, uğurun təməlində intizamın, dəqiqliyin və müəllim əməyinin dayandığını vurğuladı. İbtidai siniflərdən rəsmə böyük həvəsi olduğunu, bu bacarığının müəllimlərinin diqqətini çəkdiyini bildirdi.



Dərslərinə məsuliyyətlə yanaşan Zaur Hüseynov 8-ci sinfi bitirdikdən sonra, 14 yaşında Cəmşid Naxçıvanski adına Hərbi Liseyə daxil olub. O, 18 yaşında Ali Hərbi Məktəbin birinci kursunda topoqrafiya fənni ilə tanışlığını və bu biliklərin həyatında yaratdığı dönüşü xüsusi həyəcanla xatırladı: “Məktəb illərində rəsm çəkməyi çox yaxşı bacarırdım. Ali Hərbi Məktəbdə topoqrafiya dərsinə girəndə müəllimimiz xəritədə profilin necə çəkildiyini, hərbçinin A nöqtəsindən B nöqtəsinə hərəkət edərkən ərazinin relyefini necə oxumalı olduğunu izah etdi. Sonra dedi ki, gəzib baxacaq, kim başa düşməyibsə, yerində öyrədəcək. Mən də tapşırığı dərhal və dəqiqliklə yerinə yetirdim. Ondan sonra hər dərsdə “5” alırdım. Bir neçə dərsdən sonra mənə dedi: “Sənin aldığın bu qiymət daş üzərinə yazılan “5” kimidir”. O vaxt 18 yaşım var idi, bu ifadənin mənasını anlamadım. Düşündüm ki, yəqin yaddaqalan olduğu üçün belə deyir”.

Bu ifadənin əsl mənasını Zaur Hüseynov Vətən müharibəsində anlayır. İşğal dövründə cəmi 5-6 yaşı olan, həmin əraziləri heç vaxt görməyən hərbçinin illər əvvəl mənimsədiyi topoqrafiya bilikləri döyüş meydanında mühüm üstünlüyə çevrilir: “Vətən müharibəsində Cəbrayıla, Füzuliyə, Hadruta və Şuşaya irəliləyəndə biz o torpaqları yalnız xəritələrdən tanıyır, gözümüzün qabağına gətirib xəyal edirdik. Döyüşlər zamanı bütün tapşırıqlarda topoqrafik xəritələrin oxunmasında, hərəkətdə iştirak edirdim. Yuxarı komandirlər xəritəni daha dəqiq bildiyimə görə harada olduğumuzu təyin etməyi, marşrutu cızmağı mənə həvalə edirdilər ki, dəqiq nöqtəni xəritədə göstərim. Biz ilk dəfə ayaq basdığımız o dərələri, meşələri, keçilməz dağları məhz həmin xəritələri dəqiq oxumaqla fəth etdik”.

AĞIR TARİXİ YOLDAN ŞANLI ZƏFƏRƏ

Hərbçimiz Azərbaycanın keçdiyi çətin tarixi dövrləri, Birinci Qarabağ müharibəsinin acılarını və Ulu Öndər Heydər Əliyevin siyasi iradəsi ilə başlayan inkişaf yolunu xatırlatdı. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ordumuzun gücləndiyini deyən Qəhrəmanımız özünün də iştirak etdiyi Aprel döyüşlərini və Vətən Müharibəsini belə dəyərləndirdi: “2016-cı ildə Aprel döyüşlərində öz bölməmlə iştirak edirdim. Dörd gün sonra döyüşlər dayansa da, içimizdəki o savaş dayanmadı. 2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlayanda atılan ilk mərmini Aprel döyüşlərində atılan son mərminin davamı kimi hiss etdim”.

“ÖZÜMÜZÜ ŞUŞAYA SİPƏR ETDİK”

Döyüşün ən dramatik və ağır anları Şuşa əməliyyatı zamanı yaşanmışdı. Ağır texnika və tank əleyhinə vasitələr hələ gəlib çatmadığı bir vaxtda düşmən tankları əks-hücuma keçmişdi: “Tanklar elə məsafədə idi ki, avtomatla onları vurmaq olmurdu, amma onların mərmisi bizə çatırdı. Bir komandir kimi anlıq qərar verdim. Şuşa qalasının divarları arxasına sığındıq. Tarixi qala divarları tank mərmilərinə sinə gərdi, özünü bizə sipər etdi, biz də özümüzü Şuşaya sipər etdik. Biz o mövqeləri sonadək qoruyub saxlaya bildik”.

Z.Hüseynov üçün Şuşaya gedən yolun mənası yalnız hərbi əməliyyatın çətinliyi və keçilməz relyeflə məhdudlaşmırdı. Bu yol həm də xalqın 30 illik həsrətini, şəhidlərin qanını, döyüşçülərin iradəsini və tarixi yaddaşımızı özündə birləşdirirdi: “Bu yol asfalt deyildi. Bu yolda şəhidlərimizin qanı, döyüşçülərimizin iradəsi, analarımızın duaları vardı. Bu, gecəsi-gündüzü olmayan döyüşlərin, ağır sınaqların yolu idi. Bu yolda Xudafərin körpüsü, Azıx mağarası, İsa bulağı, Şuşanın qayaları, Cıdır düzü, Şuşa qalası vardı. Ən əsası isə bu yol Azərbaycan xalqının 30 illik həsrətini daşıyırdı. Azərbaycan oğulları Ali Baş Komandanın rəhbərliyi ilə xalqımızın 30 illik həsrətinə son qoydular”.



“Arxa cəbhənin nəfəsini hiss edirdik”

Şagirdlərdən birinin “Arxa cəbhədə insanların həmrəyliyini, xalqın ordu ilə birliyini necə qiymətləndirirsiniz?” sualını cavablandırarkən hərbçimizin gözlərindəki qürur daha aydın hiss olunurdu: “Biz ön cəbhədə Azərbaycan xalqının bu savaşla nəfəs aldığını daim hiss edirdik. Məktəblilərin yazdığı məktublar, yaşlı nənə-babalarımızın təqaüdlərini cəbhəyə göndərməsi, insanların küçədən keçən hərbi maşınlara evlərindəki bir tikə çörəyi uzatması bizim üçün ən böyük stimul idi. Hiss edirdik ki, Azərbaycan xalqı daim arxamızdadır”.



Fotolar: Mahir Rüstəmov/Global Photostock

PEŞƏKAR HƏRBÇİ, VƏTƏNPƏRVƏR ZABİT CAVAD BƏY ŞIXLİNSKİ HAQQINDA QEYDLƏR

HƏRB TARİXİMİZİN UNUDULMAZ SİMASI

Məşhur Gəncə üsyanının təşkilatçılarından olan Cavad bəy Şıxlinski bolşeviklərlə döyüşlərdə ağır yaralanır. Amma mühasirədən çıxarılır və İrana mühacirət edir.

RAFİQ SƏFƏROV

Azərbaycanın tanınmış sərkərdələrindən biri də Cavad bəy Məmmədağa oğlu Şıxlinskidir. O, 1874-cü il yanvarın 3-də Qazax qəzasının Aşağı Salahlı kəndində anadan olub. İlk hərbi təhsilini Tiflis Kadet Korpusunda alıb. 1892-ci ildə Sankt-Peterburqdakı Konstantinovski Artilleriya Məktəbinə qəbul olaraq hərbi təhsilini həmin məktəbdə davam etdirib. Cavad bəy Artilleriya məktəbini fərqlənmə diplomu ilə bitirdikdən sonra 1894-cü ildə 39-cu artilleriya briqadasına "podporuçik" rütbəsi alaraq briqadanın təlim dəstəsində təlimatçı vəzifəsində fəaliyyətə başlayıb. Artilleriya briqadasının təlim dəstəsində xeyli müddət çalışdıqdan sonra 1895-ci il avqustun 18-də Qazax qəzasına göndərilib və 1897-ci ilin noyabr ayından etibarən orada 3-cü hərbi batareyanın baş zabiti olaraq fəaliyyətini davam etdirib.

ÇOXSAYLI ORDEN VƏ MEDALLARLA TƏLTİF EDİLİB

İstedadlı zabit olan Cavad bəy Qarsda və Aleksandropolda da xidmət edib. Nümunəvi hərbi xidməti ilə seçilib. 1908-ci il martın 16-da 3-cü dərəcəli "Müqəddəs Anna", 1911-ci il martın 2-də 2-ci dərəcəli "Müqəddəs Stanislav" ordenləri ilə təltif edilib. 1913-cü il fevralın 21-də "Romanovlar sülaləsinin 300 illiyi" münasibətilə xatirə medalını və podpolkovnik rütbəsini əldə edib. 1913-cü ildə 23-cü iriçaplı artilleriya divizionunun komandiri vəzifəsinə təyin edilib. Cavad bəy I Dünya müharibəsinin fəal iştirakçılarından olub. O, həmin dövrdə hərbi xidmətlərinə görə iki dəfə Ali Baş Komandanlığın yüksək mükafatları ilə təltif olunub. Hərbi şücaətinə görə 1914-cü il fevralın 15-də 2-ci dərəcəli "Müqəddəs Anna", 1915-ci il yanvarın 31-də 4-cü dərəcəli "Müqəddəs Vladimir", 1915-ci il sentyabrın 29-da isə 4-cü dərəcəli "Müqəddəs Vladimir" (qılınc və bantla) ordenləri ilə təltif olunub. 1917-ci ildə 45-ci artilleriya briqadasının 1-ci divizionuna komandir təyin olunub, 1917-ci il aprelin 22-də isə polkovnik rütbəsini əldə edib. Polkovnik Cavad bəy Şıxlinski 1917-ci ilin sonunda Azərbaycana qayıdıb.

BAKININ İŞĞALDAN AZAD OLUNMASINDAKI ROLU

Tarixi mənbələr təsdiq edir ki, Cavad bəy Azərbaycanın hərb tarixində əhəmiyyətli yeri və rolu olan sərkərdələrdəndir. O, məşhur sərkərdə, Rusiya İmperiyası ordususun "artilleriya allahı" sayılan general-leytenant Əliağa Şıxlinskinin qardaşı oğludur. 1918-ci il mayın 28-də Azərbaycan müstəqilliyini elan etdikdən sonra hərbi xidmətini Əlahiddə Azərbaycan Korpusunda davam etdirib. 1918-1920-ci illərdə ölkəmizdə həyata keçirilən müstəqil ordu quruculuğunda yaxından iştirak edib. Cavad bəy 1918-ci ilin sentyabrında Bakının daşnak-bolşevik işğalından azad edilməsi uğrunda gedən döyüşlərdə cəsarəti ilə seçilib. Bu şücaətinə görə Nuru Paşa tərəfindən medalla təltif olunub. 1918–1919-cu illərdə Gəncə şəhər qarnizonunun rəisi (komendantı) olaraq bölgədə asayişin və hərbi nizamın qurulması işlərinə bilavasitə rəhbərlik edib.

ZƏNGƏZURDA ERMƏNİ SEPARATÇILARINI MƏĞLUBİYYƏTƏ UĞRADIR

Hərbi təhsili ilə seçilən Cavad bəy 1919-cu ildə hərbi nazir Səməd bəy Mehmandarovun əmri ilə Gəncə diviziyasının və qarnizonunun rəisi vəzifəsinə təyin olunub, həmçinin Azərbaycan Ordusunun 1-ci piyada diviziyasına komandanlıq edib. O, 1920-ci ilin mayında baş vermiş məşhur Gəncə üsyanının əsas təşkilatçılarından və rəhbərlərindən biri olub. 1919-cu ildə hökumətin qərarı ilə Cavad bəy Şıxlinskinin rəhbərliyi altında yaradılmış nizami ordu hissələri döyüşlərdə əldə etdiyi zəfərlərlə Zəngəzuru erməni quldurlarından təmizləmiş və sabitliyi təmin etmişdi.





Gəncə üsyanı, İran ordusunda yeni başlanğıc

Bolşevik Rusiyasının XI qırmızı ordusu 28 aprel 1920-ci ildə Azərbaycan Xalq Cümhuriyyətini (AXC) devirərək ölkəni işğal etdi və milli dövlət quruculuğuna son qoyuldu. Aprel işğalından sonra - may ayında Cavad bəy Şıxlinski, Cahangir bəy Kazımbəyli və Gəncə komendantı Məhəmməd Mirzə Qacar tutduqları vəzifələrindən azad olundular. Azərbaycanın bolşeviklər tərəfindən işğalına etiraz olaraq Gəncə şəhərində yerləşən hərbi hissələr və əhali üsyana başlayıb. Üsyanın təşkilatçılarından biri də məhz Cavad bəy Şıxlinski idi. Üsyanın yatırılmasından bir neçə saat əvvəl Cavad bəy artilleriya atəşi nəticəsində ağır yaralanır. Daha sonra isə onu mühasirədən çıxarıb doğulduğu Aşağı Salahlı kəndinə aparıblar. Orada qalmaq təhlükəli olduğu üçün qohumu Mədət bəy Alqanov tərəfindən əvvəlcə Qarayazı meşəsinə, daha sonra isə Tiflisə aparılıb. Bir müddət sonra Tiflisi də tərk edərək İrana gedib. Peşəkar hərbçi olduğu üçün Ərdəbil qarnizonunun komandiri təyin olunub. Lakin orada yaşadığı dövrdə bolşeviklər tərəfindən təqib olunduğu üçün Türkiyəyə mühacirət etməli olub.



Türkiyədə bir müddət qaldıqdan sonra Cavad bəy yenidən İrana qayıdıb. Əmisi oğlu Məhəmməd Şıxlinskinin köməyi ilə İran ordusuna qoşulub. Cavad bəy İranda polkovnik-leytenant rütbəsi alıb, sonradan isə polkovnik rütbəsinə yüksəlib. O, fars dilini öyrənib və əvvəlcə İranın Məşhəd şəhərində artilleriya komandiri və Şərq Ordusu komandirinin müavini vəzifəsinə təyin edilib. Bir neçə il Məşhəddə qaldıqdan sonra Tehrana geri çağırılıb və İran ordusunda Zabitlər Klubunun rəhbəri vəzifəsinə təyinat alıb. Cavad bəy Şıxlinski (İranda Cavad ağa Şeyxli) 1959-cu ildə Tehranda dünyasını dəyişib. Onun məzarı Tehran yaxınlığındakı Rey şəhərində, İmamzadə Abdullah qəbiristanlığındadır.

SU MÜHARİBƏSİNİN ASTANASINDA

Çin Tibet ərazisində müxtəlif su elektrik stansiyaları və bənd layihələri həyata keçirir. Hindistan isə bu fəaliyyətlərin aşağı axında yerləşən ərazilərə mümkün təsirlərindən narahatdır.



AZƏR NURİYEV



Dünyada su ehtiyatları uğrunda mübarizə dövlətlər arasında gərginliyi artırır. Asiyanın iki qüdrətli dövləti - Hindistan və Çin arasında da su ilə bağlı illərdir gərginlik yaşanır. Dünyanın ən böyük əhali sayına malik iki dövləti olan Hindistan və Çin Himalay dağlarından başlayan bir sıra mühüm çayın formalaşdırdığı su ehtiyatlarından asılıdır. Xüsusilə Yarlunq Tsanqpo (Brahmaputra), Hind çayı hövzəsi və digər transsərhəd su sistemləri iki ölkənin strateji maraqlarının kəsişdiyi məkanlardır.

Son vaxtlar Hindistan və Çin arasında hidroqovşaqların tikintisi ilə bağlı planlar səbəbindən ziddiyyətlər daha da dərinləşib. Çin Yarlunq Tsanpo çayı (Hindistanda Sianq, daha aşağı axarında isə Brahmaputra adlanır) üzərində dünyanın ən böyük hidrotexniki qurğusunu inşa etməyi planlaşdırır. Yeni Delhidə ehtiyat edirlər ki, Pekin su axınına nəzarətdən Hindistana təzyiq vasitəsi kimi istifadə edə bilər. Hindistan isə Çinə məxsus Tibetlə sərhədə yaxın Arunaçal-Pradeş ştatının ərazisində öz bəndini tikməyi planlaşdırır.

HİNDİSTANDA ADİ TAYFASININ ETİRAZLARI

Hindistanın Arunaçal-Pradeş ştatında yaşayan adi tayfası kəndlərinin sular altında qalacağından qorxur. Tayfanın təmsilçiləri etirazlarını ifadə etmək üçün küçələrə çıxıblar. Nümayişə çıxan gənclər hüquq-mühafizə orqanlarının əməkdaşlarına daş atıb, polis məntəqəsini və dövlətə məxsus elektrik enerjisi korporasiyasının binasını yandırıblar.

Sianq çayı vadisində etirazlar iki ildir ki, davam edir. Aksiyalara Sianq Yerli Fermerlər Forumunun prezidenti, Sianq vadisində yaşayan adi tayfasının fəallarından biri Geqonq Ciconq çağırış edib. Forumun əsas tələbi 10 min MVt-dan çox gücə malik Yuxarı Sianq Çoxməqsədli Layihəsinin (SUMP) ləğv edilməsidir. Fəalların bildirdiyinə görə, layihə ən azı 27 yaşayış məntəqəsinin su altında qalmasına, daha 40-50 yaşayış məntəqəsinə isə ziyan dəyməsinə səbəb olacaq. Etirazçılar "Dağıntısız inkişaf" şüarı ilə çıxış edir və dövlətin ilkin ekspertiza işlərini aparmasına mane olurlar. Onlar kiçik su elektrik stansiyalarının tikintisinə qarşı deyillər, lakin çay vadisinin su altında qalmasına qəti şəkildə etiraz edirlər. İlk baxışdan mühəndislər və hər iki ölkənin mütəxəssisləri görüşərək məsələni peşəkar səviyyədə həll edə bilərlər. Lakin fikir ayrılıqlarının arxasında siyasi amillər dayanır.

İKİ ÖLKƏ ARASINDA QARŞIDURMALARIN TARİXİ

Asiyanın iki nəhəngi arasında hərbi qarşıdurmaların əsas tarixi 1962-ci il sərhəd müharibəsi və ondan sonra baş verən lokal qanlı sərhəd toqquşmaları ilə xarakterizə olunur. İki ölkə rəsmi olaraq yalnız bir dəfə irimiqyaslı müharibə etsə də, strateji rəqabət və ərazi mübahisələri bu gün də davam edir. Böyük Britaniya regionu tərk edərkən sərhədləri dəqiq cızmamışdı. Hindistan İngiltərə dövründən qalan MakMahon Xəttini (şərqdə) və Conson Xəttini (qərbdə) rəsmi sərhəd sayır. Çin isə bu xətləri "müstəmləkəçi müqavilələr" adlandıraraq rədd edir. Çinin Tibeti özünə birləşdirməsi iki ölkəni birbaşa qonşu edib. 1959-cu ildə Tibet üsyanı yatırıldıqdan sonra Hindistanın dini lider Dalay Lamaya sığınacaq verməsi Pekinin ciddi qəzəbinə səbəb olub. Çinin Hindistanın öz ərazisi hesab etdiyi Aksay-Çin bölgəsindən gizlicə strateji hərbi yol çəkməsi münasibətləri tamamilə qoparıb. Hindistan baş naziri Cəvahirlal Nehru Çin qoşunlarının qarşısını almaq üçün mübahisəli zonaların içərilərinə doğru hərbi postlar qurmaq əmri verib. 20 oktyabr 1962-ci ildə Çin Xalq Azadlıq Ordusu həm şərq (Arunaçal-Pradeş), həm də qərb (Ladax/Aksay-Çin) cəbhələrində eyni vaxtda irimiqyaslı hücuma keçib. Müharibə 4000 metrdən yüksək, dözülməz dərəcədə soyuq olan Himalay dağlarında gedib. Hindistan ordusu belə yüksəkliyə, dağ iqliminə və qış geyimlərinə tam hazır deyildi. Çin ordusu taktiki və say üstünlüyü sayəsində Hindistan müdafiəsini yararaq Assam düzənliklərinin kənarına qədər irəliləyib. 21 noyabr 1962-ci ildə Çin birtərəfli qaydada atəşkəs elan edib və qüvvələrini geri çəkib. Lakin bölgə Çinin faktiki nəzarətində qalıb. Müharibədə 1300-dən çox Hindistan əsgəri həlak olub. Böyük müharibədən sonra da tərəflər arasında 1967, 1987-ci il, 2020-ci illərdə bir neçə ciddi hərbi qarşıdurma baş verib. Bu gün iki ölkəni ayıran rəsmi bir sərhəd yoxdur, bunun əvəzinə Həqiqi Nəzarət Xətti (LAC) mövcuddur. Hər iki dövlət sərhəd zonalarında nəhəng hərbi infrastruktur, yollar, aerodromlar tikir və on minlərlə ağır silahlı əsgər saxlayır.



SU MƏLUMATLARININ PAYLAŞILMASI VƏ DİPLOMATİK MÜNASİBƏTLƏR

Hindistan və Çin arasında su məsələləri yalnız qarşıdurma ilə məhdudlaşmır. İki ölkə transsərhəd çaylar üzrə müəyyən əməkdaşlıq mexanizmləri də yaradıb. 2002-ci ildə Brahmaputra çayının daşqın mövsümündə hidroloji məlumatlarının paylaşılması ilə bağlı memorandum imzalanıb. 2006-cı ildə isə Transsərhəd çaylar üzrə Ekspertlər Səviyyəsində Mexanizm (Expert Level Mechanism) yaradılıb. 2013-cü ildə imzalanan memorandum tərəflərin məlumat mübadiləsini və fövqəladə halların idarə olunması sahəsində əməkdaşlığını gücləndirməyi nəzərdə tuturdu. Lakin bu əməkdaşlıq hərtərəfli su bölgüsü sazişi demək deyil.

Hindistan-Çin arasında "su gərginliyi" müasir beynəlxalq münasibətlərdə təbii ehtiyatların geosiyasi güc amilinə çevrilməsinin mühüm nümunəsidir. Brahmaputra çayı ətrafında yaranan rəqabət göstərir ki, su ehtiyatlarına nəzarət məsələsi dövlətlərin iqtisadi inkişafı, milli təhlükəsizliyi və regional nüfuzu ilə birbaşa bağlıdır.

BURADA SİZİN REKLAMINIZ OLA BİLƏR

Tel: (+994 55) 457-02-03 / (+994 77) 447-47-17 E-mail: kaspiqazeti@kaspi.az

"DÜNYANIN ƏN YAXŞI 50 TƏLƏBƏSİ" SİYAHISINA DAXİL EDİLƏN AZƏRBAYCANLININ UĞUR HEKAYƏSİ

ŞƏMKİRDƏN OKSFORDA UZANAN YOL



SÖHBƏTLƏŞDİ



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

Nuranə Məmmədova: "Regionda təhsil almaq heç də insanın gələcək akademik və peşəkar uğurlarını məhdudlaşdırmır. Təhsil aldığım illərdə regionlarda özünüinkişaf imkanları müəyyən qədər məhdud olsa da, Şəmkirdə aldığım orta məktəb təhsilinin keyfiyyəti çox yüksək idi".

Şəmkirdən Oksforda uzanan yol, beynəlxalq təşkilatda qazandığı təcrübə və bütün bunlardan sonra biliklərini öz ölkəsində bölüşmək istəyi... Onun hekayəsi uğurun insanın özünə inamından, davamlı öyrənmək istəyindən və qarşısına qoyduğu məqsədlərdən asılı olduğunu göstərir.

Müsahibimiz Dövlət Proqramının təqaüdçüsü, Oksford Universitetində beynəlxalq münasibətlər üzrə fəlsəfə doktoru namizədi və həmin universitetdə tədris fəaliyyəti ilə məşğul olan Nuranə Məmmədovadır.

● Nuranə xanım, Şəmkirdən Oksford Universitetinə, oradan da beynəlxalq təşkilatda fəaliyyətə uzanan maraqlı bir yol keçmisiniz. Söhbətimizə bu yolun başlanğıcından başlayaq.

● Uşaqlığımın müəyyən hissəsi Ukraynada keçsə də, orta məktəb təhsilimi 7-ci sinifdən etibarən Şəmkir şəhərinin Cahangir Rüstəmov adına tam orta məktəbində davam etdirmişəm. Şəxsiyyət kimi formalaşmağımda və gələcək uğurlarımda məktəbdə qazandığım biliklərin və müəllimlərimin müstəsna rolu olub. Həmin dövrdə, demək olar ki, bütün fənlərə maraq göstərirdim, amma riyaziyyat xüsusi yer tuturdu. Bu maraq məni II ixtisas qrupunu seçməyə yönəltdi. Yüksək balla ali məktəbə qəbul oldum. Həmin illərdə ölkədə ilk dəfə səkkiz fənn üzrə imtahan tətbiq edilmişdi. Qərb regionunda bütün fənlərdən "5" alan iki şagirddən biri idim. Həm rus bölməsi, həm də şəhərin məktəbləri arasında ən yüksək qəbul ballarından birini toplayaraq Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) Mühasibat uçotu və audit ixtisasına dövlət sifarişi əsasında qəbul olundum.

"REGİON TƏHSİLİ UĞURU MƏHDUDLAŞDIRMIR"

● Bəs nə üçün təhsilinizi yarımçıq saxlayaraq Gəncəyə köçdünüz?

● Ailəm üçün çox darıxırdım. Onlardan uzaqda qalmaq çətin gəldiyi üçün valideynlərimdən Gəncədəki Azərbaycan Dövlət Aqrar Universitetinə (ADAU) köçürülməyimə kömək etmələrini xahiş etdim. Bu, asan proses olmadı. UNEC-dəki dekanım da köçürülməyimə razı olmurdu. "Bu tələbə burada qalmalıdır", - deyirdi və məni yeni yaradılan Xüsusi İstedadlar Qrupuna (XİQ) yönəltmək istəyirdi. Lakin qərarımda israr edirdim və ailəmə yaxın olmaq üçün Gəncəyə köçərək ADAU-nun Xüsusi İstedadlar Qrupunda Dünya iqtisadiyyatı ixtisası üzrə bakalavr təhsilimi davam etdirməyə başladım.

● Çoxları paytaxtda təhsil almağın daha geniş imkanlar yaratdığını düşünür. Siz isə uğurunuzun təməlində region məktəbinin mühüm rol oynadığını qeyd edirsiniz. Sizcə, təcrübəniz region gənclərinin təhsil və karyera imkanları ilə bağlı stereotipləri dəyişə bilərmi?

● Şəxsi təcrübəmə əsasən deyə bilərəm ki, regionda təhsil almaq heç də insanın gələcək akademik və peşəkar uğurlarını məhdudlaşdırmır. Təhsil aldığım illərdə regionlarda özünüinkişaf imkanları müəyyən qədər məhdud olsa da, Şəmkirdə aldığım orta məktəb təhsilinin keyfiyyəti çox yüksək idi. Dəqiq elmlər, xüsusilə də riyaziyyat üzrə təməlimi məhz Şəmkirdəki məktəbim və müəllimlərim formalaşdırıblar. Bunun nəticəsi olaraq, II ixtisas qrupu üzrə qəbul imtahanında riyaziyyatdan 25 sualın hamısına düzgün cavab vermişdim. Daha sonra UNEC-də təhsil alarkən bütün birinci kurs tələbələri arasında ali riyaziyyat və ehtimal nəzəriyyəsi fənnindən keçirilən imtahanda maksimum bal toplayan yeganə tələbə olmuşdum. Bu gün gənclərimizin imkanları əvvəlki illərlə müqayisədə xeyli genişlənib. Gənclər evləri, müxtəlif təhsil proqramları, beynəlxalq layihələr və onlayn resurslar özünüinkişaf üçün yeni fürsətlər yaradır. Xüsusilə süni intellektin inkişafı ilə gənclər yaşadıqları yerdən asılı olmayaraq istədikləri sahədə biliklərini və bacarıqlarını inkişaf etdirə bilərlər. Xaricdə təhsil almaq da əvvəlki illərlə müqayisədə daha əlçatandır və bunun üçün müxtəlif dəstək mexanizmləri və imkanlar mövcuddur. Buna görə düşünürəm ki, insanın uğur qazanmasında yaşadığı yer qədər öz məqsədini düzgün müəyyənləşdirməsi və bu məqsədə çatmaq üçün göstərdiyi səy mühüm rol oynayır.

"DÜNYANIN ƏN YAXŞI 50 TƏLƏBƏSİ" SİYAHISINA DAXİL OLDUM"

● Riyaziyyat və iqtisadiyyat sahələrində uğur qazansanız da, magistratura pilləsində istiqamətinizi dəyişərək beynəlxalq münasibətləri seçdiniz. Bu qərarı verməyinizə nə təsir göstərdi?

● Bakalavr təhsilim dövründə iqtisadiyyatın əhəmiyyətini yaxşı dərk etsəm də, özümü başqa bir sahədə sınamaq istədiyimi anladım. Təhsilimi başa vurduqdan sonra Fransa, Almaniya və Türkiyədə təhsili nəzərdə tutan Avropa İttifaqının xüsusi iki dərəcəli magistr proqramına qəbul olundum. Tam təqaüd qazandığım üçün bu fürsəti dəyərləndirmək qərarına gəldim. İxtisasım fərqli olsa da, beynəlxalq və Avropa münasibətləri üzrə təhsil almaq mənə maraqlı gəlirdi. Əslində, riyazi və iqtisadi biliklərim magistratura təhsilimdə mənə çox kömək etdi. Dissertasiyamda oyunlar nəzəriyyəsini (Game Theory) tətbiq etmişdim. Hətta 2022-ci ildə Şərqi Avropada baş verən siyasi hadisələri olduğu kimi illər əvvəl kurs işimdə proqnoz etmişdim. Müdafiə zamanı müəllimlərim dissertasiyamın oxuduqları ən maraqlı işlərdən biri olduğunu bildirmişdilər. Magistratura təhsilimi fərqlənmə diplomu ilə başa vurdum.



Biliyin bölüşdükcə dəyər qazandığına həmişə inanmışam. Təhsilin hər kəs üçün əlçatan olması üçün də əlimdən gələni etməyə çalışmışam.

● Hələ 19 yaşınızdan təlimçilik fəaliyyətinə başlamısınız. Bu həvəs necə yarandı?

● Tələbəlik illərində qısa müddət debatlarda iştirak etdim və ölkə üzrə top spikerlərin ilk üçlüyündə yer aldım. Düzü, rus bölməsində təhsil aldığım üçün debatlar Azərbaycan dilimi təkmilləşdirməyimə də kömək etdi. Universitetdə tədbirlər keçirilməndə və qonaqlar gələndə rektor məhz mənim çıxış etməyimi istəyirdi. Adətən çıxışlarımdan sonra müxtəlif qurumların nümayəndələri danışıq üslubumu bəyəndiklərini bildirir, ictimai çıxış üzrə təlimlər keçməyimi xahiş edirdilər. Həmin vaxt Almaniya təşkilatlarından birinin Azərbaycanda keçirdiyi təlimdə iştirak etdim və həmin təşkilat məni təlimçi kimi əməkdaşlığa dəvət etdi. Beləliklə, bu istiqamətdə fəaliyyətə başladım. Sonrakı illərdə müxtəlif beynəlxalq qurumların idarə heyətlərinə seçildim və beynəlxalq təlimçi və ekspert kimi çalışdım. 70-ə yaxın ölkədə təlimlər keçərək və yerli komandaların fəaliyyətini yönləndirərək geniş auditoriyaya çatdım.

● Sonra Oksford mərhələsi başladı. Bəs dünyanın ən nüfuzlu universitetlərindən birində təhsil almaq arzunuz necə gerçəkləşdi?

● Uşaqlıqdan dünyanın ən yaxşı universitetlərində təhsil almaq və onların niyə ən nüfuzlu ali məktəblər hesab edildiyini öz təcrübəmdə görməyi qarşıma məqsəd qoymuşdum. Oksford Universitetində diplomatiya üzrə müraciət etmək istədiyim xüsusi bir proqramı araşdırıb tapmışdım. Düzünü desəm, gərgin iş qrafikimə və işimlə bağlı daim səfərlərdə olduğuma görə əvvəlki illərdə müraciət tarixlərini qaçırırdım. Oksforda müraciət etdiyim gün də yolda idim. Təyyarə ilə altı saat uçmalı idim və bu vaxtı dəyərləndirərək elə uçuş zamanı müraciət ərizəmi doldurub göndərdim və qəbul aldım. Oksfordda təhsil aldığım dövrdə məşhur fondlardan biri dünya üzrə ən yaxşı tələbələri müəyyənləşdirirdi. 176 ölkədən 11 min tələbənin iştirak etdiyi seçim nəticəsində "Dünyanın ən yaxşı 50 tələbəsi" siyahısına daxil oldum. Bu nailiyyətim dünyada və Azərbaycanda geniş əks-səda doğurdu, "The Guardian", "Oxford Mail" kimi məşhur media orqanlarında işıqlandırıldı və Oksford Universitetinin rəhbərliyindən də şəxsi təbriklər aldım. Azərbaycan həmin seçimdə ilk dəfə finalda təmsil olunurdu.

"AİLƏMƏ HƏQİQƏTƏN ÇOX BAĞLIYAM"

● Nə üçün Oksfordda doktorantura təhsili almaq imkanınız olduğu halda Azərbaycana qayıtmağı seçdiniz?

● Biliyin bölüşdükcə dəyər qazandığına həmişə inanmışam. Təhsilin hər kəs üçün əlçatan olması üçün də əlimdən gələni etməyə çalışmışam. İkinci magistratura təhsilimə qədər artıq dünyanın fərqli ölkələrindən olan 13 000-ə yaxın insana birbaşa təlim keçmiş və mentorluq etmişdim. Anladım ki, təlim və tədris fəaliyyəti mənim həyatımda xüsusi yer tutur və buna görə gec-tez doktorantura təhsili alacağam. Eyni zamanda, Oksforddakı müəllimlərim və proqramın direktoru doktorantura təhsilimi orada davam etdirməyimi israrla tövsiyə edirdilər. Lakin magistraturada qazandığım bilikləri əvvəlcə praktikada tətbiq etmək istədim. Buna görə Azərbaycana qayıdaraq İslam Əməkdaşlıq Təşkilatının (İƏT) Əmək Mərkəzində diplomat statusu ilə departament müdiri vəzifəsində çalışmağa başladım. 57 üzv ölkənin nümayəndələri və əmək nazirləri ilə çalışmaq diplomatiyanı daha dərindən öyrənməyimə, hər bir ölkənin özünəməxsus xüsusiyyətlərini anlamağıma kömək etdi. Bir müddət praktiki təcrübə topladıqdan sonra beynəlxalq münasibətlər üzrə akademik biliklərimi möhkəmləndirməyin vaxtının çatdığını anladım. Dövlət Proqramı təqaüdçüsü kimi Oksford Universitetində beynəlxalq münasibətlər üzrə doktorantura təhsilinə başladım. Daha sonra köməkçi dekan (Junior Dean) vəzifəsinə seçildim.

● Nuranə xanım, tələbəlik illərində ailənizdən ayrı qalmamaq üçün Bakı universitetini Gəncəyə dəyişmişdiniz. İndi isə Oksforddasınız. Bəs uzaq İngiltərəni necə seçdiniz?

● Çox çətindir. Mən heç vaxt xaricə orada yaşamaq və qalmaq məqsədilə getməmişəm. Həmişə düşünmüşəm ki, bu, müvəqqətidir, işimi bitirib evə qayıdacağam. Hətta layihələr arasında bir-iki günlük fasilə olan kimi təyyarəyə minib evə gəlirdim, ailəmlə görüşdükdən sonra yenidən işimə qayıdırdım. Ailəmə həqiqətən çox bağlıyam və indi də valideynlərim üçün çox darıxıram. Xaricdə ailəmdən uzaq yaşamağın mənim üçün asan olduğunu desəm, yalan olar.

"Auditoriyaya ilk növbədə tənqidi düşüncə tərzini gətirmək istəyirəm"

● Təhsil yolunuzdan danışarkən ailənizin sizə yaratdığı imkanlar və böyük qardaşınızın sizə nümunə olması diqqət çəkir. Ailənizdəki bu mühit və qardaşınızla aranızdakı sağlam rəqabət hədəflərinizə necə təsir göstərib?

● Ailəmdə təhsilə çox böyük önəm verilirdi. Anam həkim, atam isə jurnalistdir. Uşaqlıqdan bizə müxtəlif dərnəklərə getmək, fərqli sahələrdə özümüzü sınamaq üçün şərait yaradırdılar. Məsələn, atam uşaqlıqda pianoda ifa etmək istədiyinə görə bizim musiqi təhsili almağımızı arzulayırdı. Anam isə dərslərimizlə fərdi məşğul olurdu və hələ uşaqlıqdan ingilis dilini öyrənməyə, gələcəkdə isə elmi dərəcə almağa həvəsləndirirdi. Ailənin ikinci övladıyam. Böyük qardaşım həmişə mənim üçün rol modeli olub. O da dünyanın ən nüfuzlu universitetlərindən biri olan Londondakı "Imperial College"də süni intellekt üzrə təhsil alıb. Kiçik qardaşım isə məni diplomatiya sahəsində ixtisaslaşmağa həvəsləndirib və bu yolda daim dəstək olub. Bir sözlə, düşünürəm ki, insanın ətrafı onun şəxsiyyət kimi formalaşmasında və müvəffəqiyyətli olmasında ən böyük rolu oynayır və gələcək uğurların təməlini qoyur. İlk ətrafımız ailəmiz olur və onu biz seçmirik. Daha sonra isə ətrafımızı özümüz formalaşdırırıq.

● Nuranə xanım, gələcək planlarınız nədir? Oksfordda qazandığınız təcrübəni ölkəmizin elm və təhsil sisteminə necə inteqrasiya etməyi düşünürsünüz?

● Doktoranturanı bitirdikdən sonra Azərbaycana qayıdaraq elm sahəmizə töhfə vermək ən böyük planımdır. Tədris fəaliyyətim üçün Azərbaycan Dövlət Aqrar Universitetini seçmişəm və orada dərs deməyə başlayacağam. Hesab edirəm ki, xarici və yerli təhsil sistemlərinin bir-birindən öyrənə biləcəyi dəyərli təcrübələr var. Auditoriyaya ilk növbədə tənqidi düşüncə tərzini (critical thinking) gətirmək istəyirəm. Tələbələrim hətta tanınmış siyasi alimlərin nəzəriyyələri ilə razılaşmaya bilərlər. Əsas odur ki, öz mövqelərini əsaslandırılmış və sistemli şəkildə ifadə etsinlər. İkinci məqsədim analitik düşüncəni inkişaf etdirməkdir və süni intellektin imkanlarından düzgün yararlanmağı aşılamaq niyyətindəyəm. Oxunan materiallar sadəcə yadda saxlanılmamalı, real dünyada baş verən proseslərin təhlilinə tətbiq edilməlidir. Üçüncüsü isə tələbələrə bu fikri aşılamaq istəyirəm ki, intellektual potensial yalnız qiymətlə ölçülmür. Məqsədim təkcə güclü elm xadimləri deyil, həm də cəmiyyət üçün faydalı və məsuliyyətli vətəndaşlar yetişdirməkdir. Paralel olaraq diplomatik fəaliyyətimi də davam etdirmək niyyətindəyəm. Akademik fəaliyyətlə diplomatik karyeram bir-birini tamamlayır.



10 MİN VERGİ ÖDƏYİCİSİ FAYDALANACAQ



Başlıca hədəf vergitutma prosesinin sadələşdirilməsi, sahibkarlıq şəraitinin yaxşılaşdırılması, vergi ödəyicilərinin üzərindəki inzibati və maliyyə yükünün azaldılması, paralel olaraq fiskal sabitliyin qorunmasıdır.

Milli Məclisin İqtisadi siyasət sənaye və sahibkarlıq komitəsinin noyabrın 6-da keçirilən iclasında vergi qanunvericiliyinə dəyişikliklər müzakirə edilib.

İclasda çıxış edən Dövlət Vergi Xidmətinin rəisi Orxan Nəzərli bildirib ki, dəyişikliklər biznesin inzibati və maliyyə yükünün azaldılmasına, sahibkarlıq mühitinin yaxşılaşdırılmasına və vergi sisteminin müasir iqtisadi çağırışlara uyğunlaşdırılmasına xidmət edir. Onun sözlərinə görə, başlıca hədəf vergitutma prosesinin sadələşdirilməsi, sahibkarlıq şəraitinin yaxşılaşdırılması, vergi ödəyicilərinin üzərindəki inzibati və maliyyə yükünün azaldılması, paralel olaraq fiskal sabitliyin qorunmasıdır. Sənəd ölkənin sosial-iqtisadi inkişaf prioritetlərinə, strateji sahələr üzrə məqsədlərə, o cümlədən sənaye və turizm sektorlarının stimullaşdırılması vəzifələrinə əsaslanaraq hazırlanıb. Xidmət rəisi qeyd edib ki, irəli sürülən dəyişikliklərin müəyyən hissəsi sahibkarlıq subyektləri ilə aparılmış geniş həcmli müzakirələrin yekunu olaraq və onların təqdim etdiyi təkliflər nəzərə alınaraq hazırlanıb: "Müzakirələrin nəticələri cari ilin büdcə-vergi siyasətinin formalaşdırılmasında öz əksini tapıb".

MİKRO VƏ KİÇİK SAHİBKARLIĞIN İNKİŞAFININ STİMULLAŞDIRILMASI

Orxan Nəzərli qeyd edib ki, Vergi Məcəlləsinə dəyişiklikdən təxminən 10 min vergi ödəyicisinin faydalanacağı gözlənilir. Biznes mühitinin yaxşılaşdırılması və investisiyaların təşviqi istiqamətində nəzərdə tutulan dəyişikliklər mikro və kiçik sahibkarlığın dəstəklənməsini, vergi ödəyicilərinin vergi öhdəliklərini vaxtında yerinə yetirməsinin stimullaşdırılmasını, kənd təsərrüfatında yeni vergitutma mexanizminin tətbiqi ilə ayrı-ayrı sektorların inkişafını, həmçinin bir sıra vergi güzəştlərinin müddətinin uzadılmasını əhatə edir: "Bu çərçivədə növbəti il üçün təklif olunan mühüm dəyişikliklərdən biri mikro və kiçik sahibkarlığın inkişafının stimullaşdırılmasına, fəaliyyətlərinin dayanıqlığının təmin edilməsinə və uzunmüddətli böyümə imkanlarının genişləndirilməsinə yönəlib. Ən azı iki il kiçik sahibkar kimi fəaliyyət göstərən vergi ödəyicilərinə müəyyən şərtlər daxilində gəlir və ya mənfəət vergisi üzrə beşillik güzəştin tətbiqi nəzərdə tutulur".

FAİZLƏRİN İKİ DƏFƏ AZALDILMASI TƏKLİF EDİLİR

O. Nəzərli bildirib ki, vergi öhdəliklərinin vaxtında ödənilməməsinə görə hesablanan faizlərin iki dəfə azaldılması barədə təklif irəli sürülüb. Onun sözlərinə görə, ixraca yönəlmiş fəaliyyətin həvəsləndirilməsi də nəzərdə tutulan dəyişikliklərin prioritet istiqamətlərindən birini təşkil edir: "Bu sahədə ixrac fəaliyyəti ilə məşğul olan vergi ödəyicilərinə əlavə vergi güzəştlərinin tətbiqi təklif olunur. İrəli sürülən təşviqlər təkcə malların deyil, eyni zamanda xidmətlərin ixracını da əhatə edir. Həmin dəyişikliklər yerli sahibkarlıq subyektlərinin beynəlxalq bazarlara çıxış imkanlarının genişləndirilməsinə və ölkənin ixrac potensialının gücləndirilməsinə hesablanıb".



SOCAR ilə "Comstock" arasında müqavilə imzalanıb

Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) və "Comstock" şirkəti arasında "Legacy Haynesville" layihəsi üzrə "upstream" aktivlərində ki iştirak payının 20%-nin, "Western Haynesville" layihəsi üzrə "upstream" aktivlərindəki iştirak payının 15%-nin, eləcə də "Pinnacle Gas Services LLC"də "Comstock"a məxsus 73%-lik iştirak payının 15%-nin əməliyyatların idarə edilməsində iştirak hüququ olmadan alınmasına dair yekun alqı-satqı müqaviləsi imzalanıb.

"Report" bu barədə SOCAR-a istinadən xəbər verir. Müqaviləyə əsasən, sövdələşmənin ümumi dəyəri, alış qiymətinə standart düzəlişlərin tətbiqi şərtilə 1,65 milyard ABŞ dolları təşkil edir.

SOCAR-ın "Western Haynesville" layihəsi üzrə kəşfiyyat və hasilat aktivlərindəki iştirak payı beş il keçdikdən və SOCAR həmin aktivlərə yatırdığı investisiyadan 15% gəlirlilik əldə etdikdən sonra 7,5%-ə endiriləcək.

Əməliyyatın qüvvəyə minmə tarixi 1 iyul 2026-cı il müəyyən edilib. Sövdələşmənin yekunlaşması üçün müvafiq dövlət qurumlarından razılıqların alınması və qanunvericiliyə uyğun digər hüquqi prosedurların icrası həyata keçirilir.


BU NOYABR DA HƏR KƏS "TRENDYOL"DA!

Türkiyənin aparıcı e-ticarət platforması və dünyanın ən böyük elektron ticarət platformalarından biri olan "Trendyol" "Super endirim günləri" kampaniyasını elan edir. Hər il ənənəvi olaraq keçirilən kampaniya bu il noyabrın 5-dən 11-dək davam edəcək.

"Bu noyabr da hər kəs "Trendyol"da konsepti ilə təqdim olunan kampaniya çərçivəsində alıcıları milyonlarla məhsul üzrə xüsusi təkliflər gözləyir. "Trendyol" istifadəçiləri "Super endirim günləri"ndə "SUPER25" kodu ilə (maksimum 20 AZN-ə qədər) 25% endirim əldə edəcəklər.

Bununla yanaşı, kampaniya müddətində müxtəlif məhsullara 60%-dək endirimlər tətbiq olunacaq. Bu il gündəlik tələbat məhsulları, kosmetika və ev kateqoriyaları üzrə məhsullar sərfəli qiymətlərlə təklif ediləcək.

Həmçinin, platformanın əsas istiqamətlərindən dəb də daxil olmaqla, müxtəlif kateqoriyalar üzrə geniş məhsul çeşidini xüsusi endirimlərlə əldə etmək mümkün olacaq. Kampaniya müddətində



müxtəlif satıcılar tərəfindən kuponlar, promokodlar və alış-veriş səbətinə tətbiq edilən əlavə endirim imkanları təqdim ediləcək.

Kampaniya çərçivəsində alıcılar "Trendyol Plus" abunəliyinin üstünlüklərindən də faydalana biləcəklər. Azərbaycanda bu abunəliyi ilk aya özəl cəmi 1 AZN ödəməklə aktivləşdirmək mümkündür. Növbəti aylarda isə aylıq abunə haqqı 5.49 AZN təşkil edir.

"Trendyol" il ərzində təşkil etdiyi müxtəlif kampaniyalarla alıcılara geniş məhsul çeşidini daha sərfəli qiymətlərlə əldə etmək imkanı yaradır.

Kaspi ÜÇ ƏSRİN QƏZETİ

Təsisçi
Global Media Group

Baş redaktor
İlham Quliyev

Redaksiya
Baş redaktorun müavini - **Azad Əliyev**
Müxbirlər – **Təranə Məhərrəmova, Aygün Əziz, Zərif Salmanlı**
Müəlliflər – **Azər Nuriyev, Xanım Aydın, Sevinc Abbasova, Faiq Tahirov**
Korrektor – **Vüsal Əliyev**

Texniki şöbə
Kreativ direktor – **Murad Arbay**
Dizaynerlər
Lalə Qasımova, İlham İsmayılov, Samirə Əliyeva
Yayım və satış meneceri
Vadim Manafov

Ünvan
Bakı, Səməd Vurğun 34, AF Mall
Telefon: (012) 525 03 31
kaspiqazeti@kaspi.az

Qəzet "Azərbaycan" nəşriyyatında çap olunub.
Sifariş: 1491
Tiraj: 2000
Müəlliflərin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.

KÖHNƏ "XRUŞŞOVKA"LAR, YENİ TƏLƏBLƏR

Azərbaycan 2060-cı ilədək bütün mövcud və yeni binaların enerji səmərəliliyini artırmağı hədəfləyir. Ekspertlər bildirirlər ki, qərar hər binanın texniki vəziyyəti və bərpa imkanları əsasında verilməli, izolyasiya ilə söküntü məsələləri bir-birindən fərqləndirilməlidir.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Azərbaycanın 2060-cı ilədək xalis sıfır emissiya hədəfinə çatmasını nəzərdə tutan "Uzunmüddətli Aşağıkarbonlu İnkişaf Strategiyası"nda binaların enerji səmərəliliyinin artırılması əsas istiqamətlərdən biri kimi müəyyən edilib. Atılacaq addımlardan biri də yüksək performanslı istilik izolyasiya materiallarının tətbiqi və binalarda enerji istehlakının azaldılmasıdır. Bu hədəflər sovet dövründən qalma, istilik itkisi yüksək olan yaşayış binalarının modernləşdirilməsi məsələsini də gündəmə gətirir. Lakin istismar müddətini başa vurmuş "xruşşovka"ların izolyasiyası texniki və iqtisadi baxımdan nə dərəcədə səmərəlidir? Köhnə binaların enerji səmərəliliyinin artırılması onların sökülməsinin təxirə salınması deməkdir, yoxsa bu tədbirlər yalnız bərpası mümkün olan tikililərə şamil edilməlidir?

BİNALARIN SÖKÜLMƏSİ QƏRARI

Dövlət Şəhərsalma və Arxitektura Komitəsindən bildirildi ki, strategiyaya əsasən, 2060-cı ilədək bütün mövcud və yeni binaların optimal istilik izolyasiyasına malik olması nəzərdə tutulur. Bu məqsədlə müasir istilik izolyasiya materiallarının, təkmilləşdirilmiş izolyasiya sistemlərinin və ikiqat şüşəli pəncərələrin tətbiqi planlaşdırılır: "Bu tədbirlər binalarda istilik itkilərini və isitmə-soyutma üçün enerji istehlakını azaltmağa xidmət edəcək".

Həmçinin bildirildi ki, strategiyada nəzərdə tutulan izolyasiya tədbirləri bütün mövcud binaların mütləq saxlanılması və ya söküntü planlarının təxirə salınması demək deyil. Binaların saxlanılması, yenidən qurulması və ya sökülməsi ilə bağlı qərarlar onların texniki vəziyyəti, təhlükəsizlik tələbləri, təsdiq edilmiş şəhərsalma sənədləri və qüvvədə olan qanunvericilik əsasında qəbul edilir.

"KOMMUNAL XƏRCLƏRİ AZALDA BİLƏR"

Azərbaycan Qiymətləndiricilər Cəmiyyətindən də bildirildi ki, 2060-cı il hədəfləri istismar müddətini başa vurmuş və ya texniki baxımdan yararsız vəziyyətdə olan bütün binaların saxlanılmalı olduğu anlamına gəlmir: "Enerji səmərəliliyinin artırılması ilə yaşayış fondunun yenilənməsi paralel aparılmalı, hər binanın gələcəyi onun texniki vəziyyəti və iqtisadi məqsədəuyğunluğu əsasında müəyyən edilməlidir. İlk növbədə mövcud yaşayış fondunun texniki vəziyyəti kompleks şəkildə araşdırılmalıdır. Nəticələrə əsasən, hansı binalarda təmir və istilik izolyasiyasının kifayət edəcəyi, hansılarda əsaslı yenidənqurmaya ehtiyac olduğu, hansılarının isə sökülməsinin məqsədəuyğun sayıldığı müəyyən edilə bilər. Texniki cəhətdən yararlı binalarda fasadların izolyasiyası, pəncərələrin yenilənməsi və istilik sistemlərinin təkmilləşdirilməsi enerji sərfiyyatını və kommunal xərcləri azalda bilər".

Cəmiyyətin mövqeyinə görə, enerji səmərəliliyinin artırılması xərclərinin bütün mənzil sahiblərinin üzərinə qoyulması, xüsusilə yüksək təmir xərclərini qarşılamaq imkanı olmayan ailələr üçün çətinlik yarada bilər: "2060-cı ilədək bütün mövcud və yeni binaların optimal istilik izolyasiyası ilə təmin olunması hədəfi köhnə tikililərin söküntüsü ilə bağlı qərarların avtomatik dəyişməsi demək deyil. Yaxın gələcəkdə sökülməsi nəzərdə tutulan binaya böyük vəsait hesabına izolyasiya tətbiq etmək iqtisadi baxımdan səmərəsiz ola bilər. Digər tərəfdən, texniki cəhətdən yararlı binaların modernləşdirilməsi məqsədəuyğun həll sayıla bilər".



"ŞƏFFAF MALİYYƏLƏŞDİRMƏ MODELİ TƏLƏB EDİR"

Memar Muxtar Ərturanın sözlərinə görə, bu təşəbbüs enerji səmərəliliyinin artırılması və kommunal xərclərin azaldılması baxımından mühüm addımdır: "Lakin bütün köhnə binalara eyni texniki yanaşmanın tətbiqi düzgün olmaz. Mövcud yaşayış fondu texniki və enerji auditi əsasında qiymətləndirilməli, binaların konstruktiv vəziyyəti, istilik itkiləri, fasadları, dam örtüyü və mühəndis sistemləri araşdırılmalıdır. Konstruktiv vəziyyəti qənaətbəxş olan "xruşşovka"ların istilik izolyasiyası texniki baxımdan səmərəli ola bilər. Düzgün layihələndirilmiş izolyasiya istilik itkilərini azalda, mənzillərdə komfortu yaxşılaşdıra və enerji istehlakına qənaət etməyə imkan verə bilər. Bununla belə, izolyasiya materialının yanğın təhlükəsizliyi, bərkidilmə sistemi, rütubət rejimi və havalandırma düzgün hesablanmalıdır. Əks halda, kondensasiya və kif yaranması kimi problemlər ortaya çıxacaq".

M.Ərturanın fikrincə, istilik izolyasiyası binanın enerji göstəricilərini yaxşılaşdırsa da, köhnəlmiş betonun möhkəmliyini bərpa etmir, armatur korroziyasını aradan qaldırmır və seysmik dayanıqlığı artırmır: "Daşıyıcı konstruksiyalarda ciddi problemlər olduqda, ilk növbədə texniki qiymətləndirmə aparılmalı və zəruri gücləndirmə tədbirləri görülməlidir. "Xruşşovka"ların saxlanılması və ya sökülməsi yalnız binanın yaşına görə müəyyən edilməməlidir. Konstruktiv təhlükəsizlik, seysmik dayanıqlıq, bərpa imkanları və iqtisadi məqsədəuyğunluq əsas götürülməlidir. Belə genişmiqyaslı proqramın həyata keçirilməsi dövlətin, özəl sektorun və mənzil mülkiyyətçilərinin iştirakını nəzərdə tutan şəffaf maliyyələşdirmə modeli tələb edir".



Muxtar Ərturan

"BU BİNALARIN İSTİSMARI 100 İLƏDƏK NƏZƏRDƏ TUTULUR"



Elnur Azadov

Daşınmaz əmlak və inşaat üzrə ekspert Elnur Azadov isə düşünür ki, "xruşşovka"ların hamısının 2060-cı ilədək saxlanılması real görünmür: "Bu binaların bir çoxu artıq 60 ildən çoxdur istismar olunur, bəziləri isə qəzalı və ya yarımqəzalı vəziyyətdədir. Buna görə də onların əksəriyyətinin gələcəkdə söküləcəyini düşünürəm. Doqquzmərtəbəli binaların istismar müddəti bəzi hallarda 100 ilədək nəzərdə tutulur. Bununla belə, onların gələcək taleyi də texniki vəziyyətindən asılı olacaq. 1970-ci illərdən sonra inşa edilmiş binaların bir hissəsi isə 2040–2050-ci illərədək istismar oluna bilər. Bu binalarda fasadların yenilənməsi, istilik izolyasiyasının yaxşılaşdırılması və enerji səmərəliliyini artıran digər tədbirlərin həyata keçirilməsi mümkündür".

“DİFFERENSİAL ƏMƏKHAQQI ƏLAVƏSİ TƏTBİQ OLUNMALIDIR”

İlqar Orucov:

“Gənclər illərlə eyni elmi statusda qalacaqlarını anladıqda, alternativ peşəkar fəaliyyət sahələrinə üstünlük verirlər. Bir çox elmi laboratoriya və institutların maddi-texniki bazasının gənclərin beynəlxalq səviyyəli tədqiqatlar aparmaq və innovativ texnologiyalar tətbiq etmək istəkləri ilə tam uzlaşmaması faktı da var”.



SÖHBƏTLƏŞDİ



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

Ölkəmizdə 30 yaşadək gənc tədqiqatçıların sayının cəmi bir il ərzində 30,9 faiz azalması elmimizin gələcəyi ilə bağlı ciddi suallar yaradır. 2024-cü ildə elmi tədqiqat müəssisələrində çalışan gənc tədqiqatçıların sayı 1 818 nəfər olduğu halda, 2025-ci ildə bu rəqəm 1 257 nəfərə düşüb. Bu tendensiyanın gələcəkdə ölkənin elmi potensialına hansı təsiri ola bilər və vəziyyətdən çıxış yolu nədədir?

Mövzu ilə bağlı Azərbaycan Gənc Alim, Doktorant və Magistrlər Cəmiyyətinin sədri, fəlsəfə doktoru İlqar Orucovla söhbətləşdik:

YANLIŞ YANAŞMALARIN NƏTİCƏSİ

● İlqar müəllim, sizcə, 30 yaşadək gənc tədqiqatçıların sayının azalmasının əsas səbəbləri nələrdir? Bu, elmə marağın azalmasıdır, yoxsa gənclərin elmi müəssisələrdə işləmək və qalmaq imkanları ilə bağlı problemdir?

● Hesab edirəm ki, statistikada əks olunan kəskin azalma təkcə gənclərin elmə olan subyektiv marağının azalması ilə izah oluna bilməz. Bu, bilavasitə elmi müəssisələrin təklif etdiyi fəaliyyət şərtləri, iqtisadi stimullaşdırma mexanizmləri və karyera davamlılığı ilə bağlı yanlış yanaşmaların obyektiv nəticəsidir. Fikrimcə, ciddi azalmanın arxasında dayanan əsas sosioloji və iqtisadi səbəbləri bir neçə mühüm amillə xarakterizə etmək olar. Ən mühüm amil, elmi müəssisələrdəki əməkhaqqı sisteminin müasir əmək bazarı, xüsusilə də çevik özəl sektorun təklif etdiyi maddi təminat şərtləri ilə rəqabət apara bilməməsidir. 30 yaşadək perspektivli gənclər magistratura və doktorantura mərhələlərinə maraq nümayiş etdirsələr də, fəaliyyətə başladıqları dövrdə qarşılaşdıqları aşağı iqtisadi stimullaşdırma onların elmi karyeradan uzaqlaşaraq biznes, İT və beynəlxalq korporativ sahələrə transferini şərtləndirir. İkincisi, elmi müəssisələrin daxili idarəetmə strukturlarında sırf fərdi bacarığa və elmi performansa əsaslanan yüksəliş prinsiplərinin ləng işləməsidir. Gənclər illərlə eyni elmi statusda qalacaqlarını anladıqda, alternativ peşəkar fəaliyyət sahələrinə üstünlük verirlər. Bir çox elmi laboratoriya və institutların maddi-texniki bazasının gənclərin müasir, beynəlxalq səviyyəli tədqiqatlar aparmaq, böyük verilənlərlə işləmək və innovativ texnologiyalar tətbiq etmək istəkləri ilə tam uzlaşmaması faktı da var. Məsələnin digər tərəfi elmi müəssisələrin daxili menecmentində və maliyyə idarəçiliyində tətbiq olunan qeyri-effektiv yanaşmalarla bağlıdır. Elmi institutların publik hüquqi şəxs statusuna malik olmasına baxmayaraq, hələ də əsasən yalnız dövlət büdcəsindən asılı qalması strateji bir idarəetmə çatışmazlığıdır. Müəssisələr daxili potensialdan yararlanaraq əlavə gəlir mənbələri formalaşdırmalı, beynəlxalq və daxili qrant layihələrindən vəsait əldə etməli, ən əsası isə elm, sənaye və biznes əməkdaşlığını qura bilməlidirlər.

> *Ən mühüm amil, elmi müəssisələrdəki əməkhaqqı sisteminin müasir əmək bazarı, xüsusilə də çevik özəl sektorun təklif etdiyi maddi təminat şərtləri ilə rəqabət apara bilməməsidir.*

Sənaye nəhəngləri ilə müqaviləli tərəfdaşlıq

● Beynəlxalq təcrübədə gənc tədqiqatçıların elmi fəaliyyətə cəlb olunması və akademik mühitdə saxlanılması üçün hansı mexanizmlər tətbiq edilir?

● Beynəlxalq miqyasda elmtutumlu və müasir innovasiya iqtisadiyyatına malik dövlətlərdə gənclərin elmi fəaliyyətə cəlb olunması və onların akademik mühitdə saxlanılması sırf tətbiqi ekosistem və intellektual sahibkarlıq mexanizmləri üzərində qurulub. Xüsusilə ABŞ, Almaniya, Cənubi Koreya, Sinqapur, Çin və Yaponiya kimi dövlətlərin qlobal elmi mərkəzlərində gənc tədqiqatçılar yalnız nəzəri məqalə yazmaqla məhdudlaşmırlar. Onlar ilk gündən universitet daxilində fəaliyyət göstərən, dövlət və özəl sənaye tərəfindən birgə maliyyələşdirilən müştərək araşdırma mərkəzlərinə inteqrasiya edilirlər. Məsələn, Almaniyanın dünyaca məşhur Fraunhofer Cəmiyyəti modelində fundamental elmi yeniliklərin birbaşa sənaye tərəfdaşlarına satışı və lisenziyalaşdırılması mexanizmi tətbiq olunur ki, buradan əldə edilən sərbəst gəlirin böyük bir hissəsi gənc alimlərin fərdi patent və müəllif hüquqlarına bağlı olaraq onların şəxsi maddi təminatına yönəldilir. Bu mütərəqqi sistem gənc tədqiqatçını sadəcə muzdlu bir işçi deyil, öz elmi məhsulunun sahibi olan intellektual sahibkara çevirməklə yanaşı, gənc alimlərə tədqiqat institutunu eyni zamanda yüksək gəlirli intellektual startap platforması kimi görmək imkanı verir. Sinqapurun Elm, Texnologiya və Tədqiqat Agentliyi modelində, həmçinin Çin və Yaponiyanın müasir texnologiya parklarında qlobal sənaye nəhəngləri ilə gənc tədqiqatçılar arasında birbaşa müqaviləli tərəfdaşlıq qurulur. Elmi məhsulun kommersiyalaşma faizi birbaşa tədqiqatçının fərdi stimullaşdırılmasına çevrilərək elmi-akademik fəaliyyəti gənclər üçün ən cəlbedici və dinamik karyera seçimi kimi formalaşdırır.

KONKRET VƏ HƏDƏFYÖNÜMLÜ ADDIMLAR

● Sizcə, Azərbaycanda gənclərin elmə marağını artırmaq və elmi müəssisələrdə dayanıqlı fəaliyyətini təmin etmək üçün hansı konkret addımlar atılmalıdır?

● İlk növbədə, gənc kadrlar üçün differensial əməkhaqqı əlavəsi və fərdi mükafatlandırma mexanizmləri tətbiq olunmalıdır. Lakin çıxış yolu yalnız fərdi elmi məqalələrin çap olunmasına əsaslanan stimullaşdırma ilə məhdudlaşmamalıdır. Xüsusilə də fundamental elmi tədqiqatla məşğul olan müəssisələr elmi innovasiyaları konkret məhsula çevirməyi bacarmalıdırlar. Elmi məhsulların sənayeyə transferi hesabına sərbəst vəsait qazanılmalı və bu gəlirlər əməkdaşların fəaliyyətinə əlavə maddi stimullar qazandırmaqla elmi-akademik fəaliyyəti gənclər üçün real şəkildə cəlbedici etməlidir. İkincisi, gənclərin müstəqil tədqiqatlarını maliyyələşdirmək üçün dövlət tərəfindən xüsusi “Gənc Alimlərin İnnovasiya Qrantları” proqramları təsis edilməli, onların sənaye-biznes əməkdaşlığı çərçivəsində real layihələrə rəhbərlik etməsinə şərait yaradılmalıdır.

ŞAMAXİNKANIN TIXAC DÜYÜNÜ

Şamaxinkada sərnişin sıxlığını azaltmaq üçün bir sıra avtobus marşrutlarının dayanacaqları dəyişdirilsə də, problemin həlli daha geniş dəyişiklikləri tələb edir.




ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az



Bakı şəhərinin əsas nəqliyyat qovşaqlarından biri olan Şamaxinka və "20 Yanvar" metrostansiyasının ətrafında sərnişin sıxlığının azaldılması, avtobusların hərəkətinin optimallaşdırılması istiqamətində tədbirlər görülür. AYNA-nın məlumatına görə, noyabrın 2-dən etibarən 102, 130, 142 və 159 nömrəli marşrutlar Moskva prospektindəki "14 saylı notariat ofisi"nin yanındakı dayanacaq məntəqəsindən çıxarılıb və sərnişinlər alternativ dayanacaqlara yönləndirilib. Bundan əvvəl də 114A, 114B, 500, 503 və 508 nömrəli marşrutlar "14 saylı notariat ofisi"nin yanındakı dayanacaqdan çıxarılıb.
Bəs marşrutların alternativ dayanacaqlara yönləndirilməsi Şamaxinkadakı sıxlığın azaldılması üçün kifayət edəcəkmi?

ƏSAS HƏRƏKƏT İNTENSİVLİYİ SUMQAYIT-BAKI İSTİQAMƏTİNDƏDİR

Nəqliyyat eksperti Rauf Ağamirzəyevin sözlərinə görə, ən yüksək avtomobil hərəkəti intensivliyi Sumqayıt-Bakı istiqamətində qeydə alınır: "Şəhərə giriş nöqtələrində, xüsusilə şimal istiqamətində nəqliyyat sıxlığı problemi aktuallığını qoruyur. Abşeron yarımadasının ən sıx məskunlaşmış yaşayış məntəqələri Bakı, Xırdalan və Sumqayıtdır. Bu yaşayış məntəqələrinin eyni istiqamətdə yerləşməsi nəqliyyat yükünü artırır. Sərnişinlərin böyük hissəsini daşıya biləcək ictimai nəqliyyat növlərinin intensiv fəaliyyəti təmin olunmadığından insanlar fərdi avtomobillərə və qeyri-qanuni sərnişindaşıma xidmətlərinə üz tuturlar. Relsli nəqliyyatın kifayət qədər intensiv işləməməsi də avtobusların üzərinə əlavə yük salır. Çoxsaylı avtobusların eyni nöqtədə cəmləşməsi isə sıxlığı daha da artırır".



Rauf Ağamirzəyev

"DAYANACAQLARIN AVTOBUSLARIN SAYINA UYĞUN TƏŞKİLİ VACİBDİR"

R.Ağamirzəyev bildirdi ki, Şamaxinkadan "20 Yanvar" istiqamətində piyada infrastrukturunun yaxşılaşdırılması, hərəkətə mane olan baryerlərin aradan qaldırılması və dayanacaqların avtobusların sayına uyğun təşkili vacibdir: "Bir neçə avtobusun eyni vaxtda dayanacağa yaxınlaşdığı ərazilərdə uzun platformalar yaradılmalı, ərazinin imkan verdiyi hallarda avtobusların iki, hətta üç cərgədə dayanması nəzərdən keçirilməlidir. Eyni zamanda, "20 Yanvar" dairəsində piyada zolaqları ilə təchiz olunmuş keçidlər təşkil edilməli, səkilər abadlaşdırılmalı və piyada hərəkəti üçün daha qısa keçidlər yaradılmalıdır".
Ekspertin fikrincə, ərazidə qeyri-qanuni sərnişindaşıma ilə məşğul olanların fəaliyyətinin qarşısının alınması da vacibdir. Sərnişinlər şəhərətrafı marşrutlardan rahat şəkildə düşüb metroya və ya digər marşrutlara keçə bilməlidirlər: "Bunun üçün hasarların optimallaşdırılması, məhəllə girişlərinin səki səviyyəsinə qaldırılması kimi tədbirlər də görülə bilər. Uzunmüddətli perspektivdə Abşeron dairəvi dəmir yolu xəttində qatarların 15-20 dəqiqəlik intervalla hərəkəti təmin olunmalıdır. Bunun üçün yük və sərnişin daşımaları bir-birindən ayrılmalı, rabitə və işarəvermə sistemləri, rəqəmsal dispetçer xidməti təkmilləşdirilməli, qatarların sayı artırılmalıdır".

"Şamaxinka Bakının əsas giriş-çıxış nöqtələrindən biridir"

Nəqliyyat eksperti Aslan Əsədov isə bildirdi ki, Şamaxinkada problemin başlıca səbəbi nəqliyyat axınının düzgün bölüşdürülməməsidir: "Şamaxinka Bakının əsas giriş-çıxış nöqtələrindən biridir. Dairəvi yoldan hərəkət edən nəqliyyat vasitələrinin də şəhərə daxil olmaq üçün bu ərazidən istifadə etməsi nəqliyyat yükünü artırır. Alı Mustafayev küçəsi, Moskva prospekti, Müzəffər Həsənov küçəsi, Asif Məhərrəmov və 20 Yanvar küçələri kimi müxtəlif istiqamətlərdən nəqliyyat vasitələrinin əraziyə daxil olması qarışıqlıq yaradır".

"YOLLAR GENİŞLƏNDİRİLMƏLİDİR"

A.Əsədovun sözlərinə görə, problemin həlli üçün avtomobil yollarının və avtobus zolaqlarının genişləndirilməsi, avtobusların hərəkət qrafiklərinin təyinat istiqamətlərinə uyğun tənzimlənməsi lazımdır: "Moskva prospektinin Şamaxinkadan "20 Yanvar" metrostansiyasına qədər uzanan hissəsində, xüsusilə sağ tərəfdə yolun təxminən dörd metr genişləndirilməsi mümkündür. Kinostudiya istiqamətində də bu cür genişləndirmə aparıla bilər. Bundan başqa, Moskva prospektinin sağ və sol tərəflərindəki köməkçi yollarda nəqliyyat vasitələrinin sərbəst giriş-çıxışı təmin edilməlidir. Bu, Tbilisi prospektinə çıxış, Həsən bəy Zərdabi prospekti və Salamzadə küçəsi, həmçinin Şamaxinka – "20 Yanvar" istiqamətində Asif Məhərrəmov, 20 Yanvar və Mir Cəlal küçələrinə çıxışlar baxımından da əhəmiyyətlidir".

"Avtobus dayanacaqda uzun müddət qalmamalıdır"

Ekspertin fikrincə, AYNA-nın bəzi marşrutları digər dayanacaqlara yönləndirməsi effektiv həll yolu deyil: "Əsas məqsəd sərnişinlərin avtobuslara daha sürətli minib-düşməsini təmin etmək olmalıdır. Avtobus dayanacaqda uzun müddət qalmamalı, sərnişinlər minib-düşdükdən sonra hərəkətini davam etdirməlidir. Pik saatlarda sərnişin axınının idarə olunması üçün yalnız avtobuslardan istifadə etmək düzgün deyil. Taksilər üçün xüsusi minib-düşmə zonaları yaradılmalı, bu zonaların uzunluğu ən azı 10 metr olmalıdır. Əvvəllər sərnişin daşımalarında istifadə olunan kiçik və orta tutumlu avtobuslar da pik saatlarda sərnişin axınının bölüşdürülməsinə kömək edirdi. Həmin nəqliyyat vasitələrinin dövriyyədən çıxarılması nəqliyyat sistemində əlavə yüklənməyə səbəb olub".

A.Əsədov bildirdi ki, uzunmüddətli həll kimi yeni yolların çəkilməsi, tramvay xətlərinin bərpası, metro stansiyalarının sayının artırılması və dəmir yolu şəbəkəsinin genişləndirilməsi vacibdir: "Bununla yanaşı, Bakıətrafı qəsəbələr arasında birbaşa avtobus əlaqələri yaradılmalıdır. Hazırda qonşu qəsəbələr arasında birbaşa marşrutun olmadığı hallar var. Sakinlər məcburən "20 Yanvar" istiqamətinə gedərək oradan başqa nəqliyyat vasitəsinə minirlər. Bu da şəhərin əlavə yüklənməsinə səbəb olur. Şamaxinkada yol infrastrukturunun genişləndirilməsi üçün yaxınlıqdakı beşmərtəbəli və doqquzmərtəbəli binaların sökülməsi variantı da təklif olunur".

KOMBİ İŞLƏDƏNLƏRƏ XƏBƏRDARLIQ

Kombinin hər il yuyulması mütləq deyil. Əsas məsələ cihazın texniki vəziyyətidir. Bununla belə, radiator xətlərinin və istilik sisteminin ildə bir dəfə təmizlənməsi faydalıdır.



SEVİNC ABBASOVA

Payızın gəlişi ilə havalar tədricən soyumağa, evlərdə isə kombilər yenidən işə düşməyə hazırlaşır. Soyuq günlərdə istilik probleminin qarşısını almaq və yüksək kommunal xərclərlə üzləşməmək üçün kombinin mövsüm başlamazdan əvvəl yoxlanılması vacibdir.

Bəs kombiləri payız-qış mövsümünə necə hazırlamalıyıq? Kombini hər il yuduzdurmaq lazımdırmı? Texniki baxış və yuma hansı hallarda zəruridir, bunun qiyməti nə qədərdir? Qış boyu evin istiliyini qoruyarkən enerjiyə və qaza qənaət etmək üçün hansı məqamlara diqqət edilməlidir?

İstilik və soyutma sistemləri üzrə mütəxəssis Səxavət Orucovun sözlərinə görə, kombini qış mövsümünə hazırlayarkən ilk növbədə peşəkar mütəxəssis tərəfindən texniki baxış keçirilməlidir. Bu zaman kombinin elektrik, qaz və su sistemi, eləcə də radiator xətləri yoxlanılmalıdır.

"Elektrik şəbəkəsinə qoşularaq mühərrikin, fanın və digər komponentlərin işlək vəziyyətdə olub-olmaması yoxlanılır. Eyni zamanda qazın normal yanıb-yanmadığı və tənzimləyici sistemlər yoxlanılır. Daha sonra radiatorlar və istilik xətləri nəzərdən keçirilir. Lazım gəldikdə radiatorlar təmizlənir, sistem yenidən yığılır və nasaz detallar dəyişdirilir", - deyə ekspert bildirib.

KOMBİNİ HƏR İL YUDUZDURMAQ LAZIMDIRMI?

S.Orucov hesab edir ki, kombinin hər il yuyulması mütləq deyil. Əsas məsələ cihazın texniki vəziyyətidir. Bununla belə, radiator xətlərinin və istilik sisteminin ildə bir dəfə təmizlənməsi faydalıdır.

Ekspertin sözlərinə görə, kombinin yuyulmasının vahid qiyməti yoxdur və məbləğ mənzilin sahəsindən, kombinin gücündən və sistemin vəziyyətindən asılıdır. 60-70 kvadratmetrlik mənzillərdə 18 və ya 24 kilovatlıq kombinin yuyulması adətən 50-70 manata başa gəlir. Daha böyük və çoxsaylı kombi sistemlərində isə qiymət 150-200 manata qədər yüksələ bilər.

S.Orucov bildirib ki, enerjiyə və qaza qənaət üçün yalnız kombinin deyil, bütövlükdə istilik sisteminin düzgün qurulması vacibdir. Radiatorların sayı və ölçüsü otağın sahəsinə uyğun seçilməlidir.

"İmkan varsa, radiatorun istilikvermə gücünü bir qədər yüksək seçmək daha məqsədəuyğundur. Bu zaman kombi otağı daha rahat qızdırır və qoyulmuş temperatura daha tez çatır. Nəticədə cihaz fasilələrlə işləyir və enerji sərfiyyatı azalır", - deyə ekspert vurğulayıb.

Mütəxəssis kombinin yuyulmasına və ya texniki baxışa ehtiyac olduğunu göstərən əlamətlərə də diqqət çəkib. Onun sözlərinə görə, kombi 45-50 dərəcədə işlədiyi halda radiatorlar lazımi qədər qızmırsa, səbəb istilik xətlərində tıxanma və ya radiatorların düzgün seçilməməsi ola bilər.

"Kombinin tez-tez sönməsi, təzyiqinin aşağı düşməsi və səsli işləməsi də diqqətdən kənarda saxlanılmamalıdır. Səsli işləmənin səbəbi fan və ya digər nasazlıq ola bilər. Təzyiq davamlı aşağı düşürsə, su sızmasının və ya doldurma kranında problemin olub-olmaması yoxlanılmalıdır", - deyə o bildirib.

SEÇİM EDƏRKƏN SERVİS İMKANLARI NƏZƏRƏ ALINMALIDIR

S.Orucov vətəndaşlara kombi alarkən yalnız qiymət və texniki göstəricilərə deyil, servis imkanlarına və ehtiyat hissələrinin əlçatanlığına da diqqət yetirməyi tövsiyə edib.

"Bəzi kombilərin müəyyən detalları xaricdən gətirilir və onların ölkəyə çatdırılması həftələrlə çəkə bilər. Nəticədə vətəndaş uzun müddət kombisiz qalır və cihazı dəyişmək məcburiyyətində olur. Ona görə kombi seçərkən servis şəbəkəsinin, ehtiyat hissələrinin və peşəkar ustaların mövcudluğunu nəzərə almaq lazımdır", - deyə ekspert vurğulayıb.

O qeyd edib ki, kombi qazla işləyən cihaz olduğundan onun texniki vəziyyətinə laqeyd yanaşmaq olmaz. Qaz yanması, təzyiq və digər göstəricilərlə bağlı problem yarandıqda sistem mütləq mütəxəssis tərəfindən yoxlanılmalıdır.

Qışdan əvvəl qaz təzyiqi də yoxlanılmalıdır

Ekspert qış başlamazdan əvvəl mənzildə qaz və su təzyiqinin də yoxlanılmasını tövsiyə edir. Onun sözlərinə görə, soyuq havalarda eyni binada çoxsaylı kombinin eyni vaxtda işə düşməsi qaz təzyiqi ilə bağlı problemləri daha qabarıq göstərə bilər.

"Bəzən problem kombidə deyil, qaz və ya su təzyiqinin zəif olmasında olur. Buna görə qaz xəttində təzyiqi əvvəlcədən yoxlamaq faydalıdır", - deyə S.Orucov bildirib.

O, qaz təzyiqinə nəzarət üçün manometrin olmasının da əhəmiyyətli olduğunu qeyd edib.

S.Orucov son olaraq vətəndaşlara kombinin qışa hazırlanması üçün təsadüfi ustalara deyil, peşəkar və etibarlı servis xidmətlərinə müraciət etməyi tövsiyə edib. Onun sözlərinə görə, mövsüm başlamazdan əvvəl texniki baxış qışın ortasında yarana biləcək problemlərin qarşısını almağa kömək edə bilər.

QAPI-PƏNCƏRƏLƏRİN KİPLİYİ ENERJİYƏ QƏNAƏTDƏ ÖNƏMLİDİR

Kommunal məsələlər üzrə ekspert Nüsrət Qasımov da qış aylarında enerjiyə qənaət etmək üçün mənzildə istiliyin qorunmasının vacib olduğunu bildirib. Onun sözlərinə görə, qapı və pəncərələrin kip bağlanmaması istilik itkisinə və nəticədə kombinin daha çox işləməsinə səbəb olur.

"Bəzən vətəndaşlar kombinin temperaturunu aşağı salmaq əvəzinə qapı-pəncərəni açaraq havanı dəyişirlər. Bu, düzgün yanaşma deyil. Otağın havasını dəyişmək lazımdır, amma bunu uzun müddət qapı və pəncərəni açıq saxlamaqla etmək olmaz. İstilik itkisinə yol verməmək üçün qapı və pəncərələrin kipliyinə diqqət edilməlidir", - deyə N.Qasımov bildirib.

Ekspert həmçinin kombi və qaz avadanlıqlarına texniki xidmət göstərərkən təsadüfi ustalara müraciət edilməməsinin vacibliyini vurğulayıb. Onun sözlərinə görə, qazla işləyən avadanlıqlara müdaxilə yalnız müvafiq peşə hazırlığı və sertifikatı olan mütəxəssislər tərəfindən həyata keçirilməlidir.



Nüsrət Qasımov

OYUNCAQ BAZARINDA YENİ QAYDALAR



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

Uşaq oyuncaqlarının satışı yeni qaydalarla tənzimlənəcək. Bu sahədə xüsusi reqlament təsdiq edilib. Yeni qaydalar dərc edildiyi gündən altı ay sonra qüvvəyə minəcək.

Nazirlər Kabinetinin qərarı ilə "Oyuncaqların təhlükəsizliyi haqqında Texniki Reqlament" təsdiq edilib. Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi tərəfindən hazırlanan sənəd ölkədə 14 yaşınadək uşaqlar üçün nəzərdə tutulan oyuncaqların təhlükəsizliyinə dair məcburi tələbləri müəyyən edir. Reqlamentin əsas məqsədi oyuncaqların insanların həyat və sağlamlığına, ətraf mühitə və əmlaka zərər vurması riskini azaltmaq, eləcə də istehlakçıların təhlükəsizlik məsələlərində çaşdırılmasının qarşısını almaqdır. Sənəd dərc edildiyi gündən altı ay sonra qüvvəyə minəcək.

Yeni qaydaların qəbulu oyuncaq bazarında təhlükəsizliyin təmin olunması baxımından mühüm addım sayıla bilər. Bəs yeni reqlament qüvvəyə minənədək mağazalarda satışda olan oyuncaqlara hansı tələblər şamil olunacaq və bu tələblərə əməl olunmasına necə nəzarət ediləcək?

"REQLAMENT BUNLARA ŞAMİL EDİLMƏYƏCƏK"

Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyindən "Kaspi" qəzetinə bildirilib ki, "Texniki tənzimləmə haqqında" Qanuna əsasən, istehlakçılara təqdim olunan qeyri-qida mallarına dair məcburi tələblər texniki reqlamentlərlə müəyyən olunur. Texniki reqlament malların təhlükəsizliyinə dair normaları özündə ehtiva edən normativ hüquqi aktdır.

Agentlikdən qeyd edilib ki, yeni sənəd "Milli standartlaşdırma sisteminin beynəlxalq tələblərə uyğunlaşdırılmasına dair 2023-2025-ci illər üçün Dövlət Proqramı"nın icrası çərçivəsində hazırlanıb. Reqlamentdə oyuncaqların orqanoleptik, fiziki-mexaniki, kimyəvi, alışma riski və digər təhlükəsizlik göstəricilərinə dair tələblər müəyyənləşdirilib.

Agentliyin məlumatına görə, texniki reqlament onun qüvvəyə minməsindən əvvəl idxal olunan, Azərbaycanda istehsal edilərək dövriyyəyə buraxılan, eləcə də istifadədə olan oyuncaqlara şamil edilməyəcək. Sənədin tələbləri oyuncaq sayılmayan məhsullara, fərdi sifarişlə hazırlanmış oyuncaqlara və sərgi nümunələrinə də aid deyil.

Bununla belə, Agentlik vurğulayır ki, yeni texniki reqlament qüvvəyə minənədək müvafiq mallara, onlarla əlaqəli proseslərə və istehsal metodlarına dair mövcud standartlar, eləcə də uyğunluğun qiymətləndirilməsi ilə bağlı müddəaları müəyyən edən normativ hüquqi aktlar hüquqi qüvvəsini saxlayır. Təsərrüfat subyektləri həmin tələblərə riayət etməlidirlər.



"Bazarda xaos yarandı"

Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov hesab edir ki, uşaq oyuncaqlarının təhlükəsizliyinə dair texniki reqlamentin qəbul edilməsi Azərbaycan bazarında təhlükəsiz məhsulların satışının təmin olunması baxımından mühüm addımdır: "Uzun müddət Nazirlər Kabinetinin 343 saylı qərarı qüvvədə olub. 2021-ci ildə ləğv edilən həmin qərarda təhlükəsizliyi təmin edilməli olan 100-dən çox malın siyahısı yer alırdı. Bu məhsullar müvafiq təhlükəsizlik tələblərinə cavab vermədən Azərbaycan əmtəə bazarına daxil ola bilməzdi. Siyahıya uşaq oyuncaqları da daxil idi. Qərarın ləğvindən sonra bazarda ciddi xaos yaranıb və təhlükəsizliyi təmin olunmayan müxtəlif məhsullar satışa çıxarılıb".

Birlik sədri bildirir ki, sonrakı dövrdə malların təhlükəsizliyinə dair müəyyən texniki reqlamentlər qəbul edilsə də, uşaq oyuncaqları ilə bağlı tələblərin ayrıca müəyyənləşdirilməsi xüsusi əhəmiyyət daşıyır.

OYUNCAQ ALARKƏN NƏLƏRƏ DİQQƏT EDİLMƏLİDİR?

E.Hüseynovun sözlərinə görə, uşaq oyuncaqları ən həssas istehlakçı qrupuna ünvanlandığı üçün onların təhlükəsizliyi xüsusi diqqət tələb edir: "Oyuncaqların hazırlanmasında istifadə olunan materiallar, quruluş və digər xüsusiyyətlər daim diqqətdə saxlanılmalıdır. Belə ki, boyaların tərkibindəki ağır metallar uşaqların sağlamlığı üçün risk yarada, oyuncaqlardan qopan kiçik hissələr isə uşaqların qulağına və burnuna düşərək təhlükə törədə bilər".

E.Hüseynov tövsiyə edir ki, istehlakçılar uşaq oyuncaqları alarkən ilk növbədə məhsulun qoxusuna diqqət yetirsinlər: "Mağazaya daxil olduqda kəskin və xoşagəlməz plastik qoxusu hiss edilirsə, həmin mağazadan oyuncaq almaqdan çəkinmək məsləhətdir. Oyuncağın rənginin çıxıb-çıxmadığını yoxlamaq üçün onu ağ parça ilə silmək olar. Parçaya rəng keçərsə, həmin oyuncağı almaqdan imtina etmək tövsiyə olunur. Həmçinin məhsulun qopa bilən hissələrinin olub-olmadığı yoxlanılmalıdır. Gəlincik alarkən isə saçlarını yüngülcə dartaraq asanlıqla qopub-qopmadığına diqqət yetirmək lazımdır".

E.Hüseynov vurğulayır ki, sadalanan və digər təhlükəsizlik məsələləri yeni texniki reqlamentdə öz əksini tapıb: "Reqlament Azərbaycan bazarında təhlükəsiz uşaq oyuncaqlarının satışının təmin olunması baxımından mühüm əhəmiyyət daşıyır. İstehlakçılar tələblərə uyğun olmayan məhsullarla qarşılaşdıqları halda aidiyyəti dövlət qurumlarına müraciət etsinlər".

"Yoxlamalarla bağlı qanunvericilikdə məhdudiyyətlər var"



Eyyub Hüseynov

Agentlikdən bildirilib ki, oyuncaq bazarında nəzarət tədbirləri "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Qanunun tələblərinə əsasən həyata keçirilir.

Qurumun açıqlamasında qeyd olunur ki, "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Qanuna əsasən, 2027-ci il yanvarın 1-dək ölkə ərazisində sahibkarlıq sahəsində aparılan yoxlamalar dayandırılıb. Bununla belə, nəzərdə tutulmuş müddətdə insanların həyat və sağlamlığına, dövlətin təhlükəsizliyinə və iqtisadi maraqlarına mühüm təhlükə yaradan hallar üzrə qanunvericilikdə nəzərdə tutulan yoxlamalar aparıla bilər. Belə yoxlamalar müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən siyahı və məhdudiyyətlər çərçivəsində həyata keçirilir.

Kaspi
ÜÇ ƏSRİN QƏZETİ
İDMAN
7 NOYABR ŞƏNBƏ 2026
www.kaspi.az

“Neftçi”nin ən güclü tərəfi hücum xəttidir. Yayda heyətinə keyfiyyətli irəli xətt oyunçuları cəlb edən flaqman 10 oyunda 25 qol vurub və bu göstəricidə vahid liderdir. Bu, klub tarixində 21-ci əsrin rekordudur.

“NEFTÇİ”
QIŞ ÇEMPİONLUĞUNA DOĞRU



“Neftçi” futbol üzrə Azərbaycan Premyer Liqasında qış çempionluğuna doğru inamla irəliləyir. Düzdür, hələ fasiləyə qədər qarşıda kifayət qədər oyun var, amma geridə qalan 10 turda yaşananlar “ağ-qaralar”ın ili major notlarla bitirmək ehtimalının yüksək olduğunu deməyə əsas verir. Buna qədər 21 xal toplayan kollektiv uzun müddət sonra liqanın vahid lideridir.

Son bir neçə mövsümü boşa verən, yalnız keçən çempionatın ortalarından etibarən özünə gəlməyə başlayan və yekunda 3-cü yeri tutan “Neftçi” bu dəfə qızıl medallara iddialıdır. Uzun illər “Qarabağ”ın hegemonluq etdiyi Premyer Liqada ötən mövsüm “Sabah” taxt-taca yiyələndi. Bu dəfə də mübarizənin əsasən bu iki kollektiv arasında gedəcəyi gözlənilsə də, “Neftçi” bu yarışda “mən də varam” mesajını verməyi bacarır.

“SABAH” VƏ “QARABAĞ”IN DURUMU

Ölkəmizi Çempionlar Liqasında təmsil edən “Sabah” üçün mövsüm ağır qrafikdə davam edir. Hazırda iki cəbhədə mübarizə aparan kollektiv tezliklə ölkə kubokunda da yarışmalı olacaq. Bununla belə, ehtiyatında bir oyun olan komanda hazırda “Neftçi”dən cəmi 1 xal geri qalır və potensial lider hesab olunur. Lakin keçən tur “Turan Tovuz” səfərində yenilgi “Sabah”ın heç də məğlubedilməz olmadığını göstərdi. Ağır qrafikdə oynaması, bir çox hallarda məşqçilərin heyətdə rotasiyalara getməsi, çempionatda “futuristlər”in heç də həmişə əsas oyunçularla mübarizə aparmaması komandanın oyununa təsirsiz ötüşmür. “Qarabağ”da isə vəziyyət daha çətin görünür. Düzdür, Ağdam təmsilçisi 19 xalla dördüncüdür və ehtiyatındakı oyunla onlar da “Neftçi”ni keçə bilərlər. Lakin son turda “Qəbələ” səfərində qeydə alınan heç-heçə komandada problemlərin olduğunu göstərdi. “Qarabağ” “Neftçi” və “Sabah”a qarşı oyunlarda da “xalları yarı bölüb”. Bu yay heyətində ciddi yeniliklər olan Qurban Qurbanovun komandası əvvəlki qədər əzəmətli görünmür. Yeni transferlərin tam oyun üslubuna uyğunlaşması ləng gedir. Uzun illər stabil heyətlə çıxış edən “Qarabağ”da bu mövsüm üçün əsas və ehtiyat oyunçuların kimlər olduğu hələ də qeyri-müəyyən görünür. Vaxt isə gedir, hər itirilən xal yekunda çempionluq mübarizəsində komandaya ciddi çətinlik yarada bilər. Əsas rəqiblərinin fərqli problemlər yaşadığı dövrdən “Neftçi” maksimum yararlanmağı bacarır.

Çempionluq üçün sınanmış formul

Hər nə qədər klassik ifadə olsa da, futbolda çempionluq birbaşa rəqiblərlə oyunlardan çox alt pillələrdəki komandalara qarşı əldə edilən nəticələrlə qazanılır. Bu mövsüm “Neftçi” bunu çox yaxşı bacarır. “Qarabağ” və “Sabah” kimi komandalara qarşı qazanılan xalların əhəmiyyəti böyükdür, daha vacibi isə nisbətən zəifləri mütləq məğlub etməkdir. “Ağ-qaralar” bu mövsüm yalnız “Zirə”yə uduzublar, ilk “4-lük”dəki rəqiblərlə oyunlarda heç-heçəyə razılaşıblar, daha aşağı pillələrdəki bütün rəqiblərini isə məğlub etməyi bacarıblar. Bu, çempionluq mübarizəsi aparan komanda üçün olduqca yaxşı nəticədir. Məğlub etməli olduğunu məğlub et, daha güclülərə uduzma - çempionluq üçün sınanmış formuldur.

ARXA XƏTTƏ ƏL GƏZDİRMƏLİ

“Neftçi” hücumda hər nə qədər qarşısıalınmaz görünsə də, müdafiə planında vəziyyət çox da yaxşı deyil. Bir neçə qarşılaşmada komanda çox sadə qollar buraxıb. Ümumilikdə kollektiv qapısında 11 top görüb və bu, ilk “5-lik”də ən pis nəticədir. Hücum edən komandanın müdafiədə boşluq buraxması normal görünə bilər, lakin əgər qolların bir çoxu fərdi səhvlərdən buraxılırsa, burada keyfiyyət məsələsi gündəmə gəlir. Rəqib komandalar bu problemləri görür və planları ona uyğun qururlar.

“Neftçi” sona qədər çempionluq mübarizəsini davam etdirmək niyyətindədirsə, qış fasiləsində arxa xəttə əl gəzdirməlidir. Xüsusilə müdafiənin mərkəzində İqor Ribeyronun qeyri-sabit çıxışı komandanı bir neçə dəfə çətin vəziyyətə salıb. Eyni zamanda, sağ cinah üçün də alternativlər düşünülməlidir. Emil Balayev və Rza Cəfərov milli komandaya namizədlər hesab olunsalar da, onların qapıdakı oyunu da bir o qədər inam vermir.

İstənilən halda, hazırkı performans bir neçə il davam edən çətin periodun geridə qalmaqda olduğunu demək üçün yaxşı əsasdır.

XXI əsrin rekordu

“Neftçi”nin ən güclü tərəfi hücum xəttidir. Yayda heyətinə keyfiyyətli irəli xətt oyunçuları cəlb edən flaqman 10 oyunda 25 qol vurub və bu göstəricidə vahid liderdir. Bu, klub tarixində 21-ci əsrin rekordudur. Bakı klubunun mövsümün ilk 10 çempionat oyununda ən azı 25 qol vurması sonuncu dəfə 2000-ci ildə qeydə alınıb. “Neftçi” qarşısındakının kimliyindən asılı olmayaraq, xoşbəxtliyi rəqib qapısı qarşısında axtarır. Komanda topa daha çox nəzarət edir, çoxkombinasiyalı hücumlar qurur, sürətli keçidlərlə daim rəqibi təzyiqdə saxlamağı bacarır. Yuri Vernidubun irəli xətdə variantları kifayət qədər çoxdur və icraçılar da keyfiyyətlidirlər. Komandanın əsas lideri isə Breno Almeydadır. Parlaq çıxışı ilə diqqət çəkən oyunçu doqquz qolla çempionatın ən sərrast oyunçusudur.